# Dirçəliş Mahnıları

# Yığıncağın başlanğıcında

## 1

*A* *(П.В-1)*

1. Dinləyin sevgi hekayəsini
Dinləyin haqq sözünü:
Allah bizi Məsihdə əfv etdi,
Rəbb ölümdən qurtardı!

*Nəqarət:* Rəbb ölümdən qurtardı!
Rəbb ölümdən qurtardı!
Allah bizi əbədi əfv etdi,
Rəbb ölümdən qurtardı!

2. Əgər itmiş günlərin yalanı
Üzür sizi hər bir an,
İnan bütün qəlbinlə, dostum, sən;
Rəbb ölümdən qurtardı!

3. Əgər çətin həyat əzabında
Sönsə ümid alovu,
Xatırlayın yalnız zehninizdə:
Rəbb ölümdən qurtardı!

4. Əgər günahlar səni azdırsa,
Gözlərin aldanmasın,
Qəlbində bu sözlər eşidilsin:
Rəbb ölümdən qurtardı!

## 2

*C* *(П.В-3)*

1. İbadət vaxtı çatdı;
İnamla gətirək
Əzab verən günahı,
Rəbb önündə açaq.
Biz çoxdan bilməliyik:
O qəbul eləyir
Və Öz xeyir-duasını
Hamıya bol verir.

*Nəqarət:* Sakit ibadət! Gözəl ibadət!
Müqəddəs ünsiyyət anı!
Necə xoşdur bizə.

2. İbadət vaxtı çatdı;
Yalvarırıq: "Ey Rəbb!
Ruhunla toxun bizə,
Hər an qarşındayıq.
Nəğmə ver könlümüzə,
Qəlbimiz alışsın,
Məhəbbət və sülh əlinlə
Qəlbləri nurlandır!"

3. İbadət vaxtı çatdı;
Sakitdir evimiz,
Birgədir qəlblərimiz
Ünsiyyətdəyik biz.

“Sülh axıt qəlbimizə,
Sülh göndər göylərdən!
İndi göy bənzərini Sən,
Rəbb, yarat qəlblərdə!”

## 3

*A* *(П.В.-11)*

1. Xeyir-dua axınını
Rəbb vəd etmişdır versin,
Dünyada yaşayanlara
Sevincini yetirsin.

*Nəqarət:* Xeyir-dualar
Damcı-damcı töкülər.
Biz axını gözləyiriк,
Rəbb, səmadan Sən göndər.

2. Xeyir-dua axınları
Hər şeyi oyandırar;
Zəmi, təpə və yollarda
Yenə həyat canlanar.

3. Xeyir-dua axınını,
Rəbb, göylərdən Sən göndər
Yalqızı apar evinə,
Yaralını Sən sağalt.

4. Xeyir-dua axınını,
Bütün evi doldurar.
Nöqsanları hiss edərək,
Rəbb önündə diz çökək.

5. Xeyir-dua axınını
Rəbb vaxtında yetirər,
Əgər nurda biz gəzirik,
Əgər bizdə Rəbb yaşar.

## 4

*F* *(П.В-12)*

1. Qardaş, xatırlat mənə
Sevgi sözünü,
Qəlbimlə duya bilim
Sevgi sirrini.
Qəlbdən nəğmə axsın,
Qoy ruhum ucalsın.

*Nəqarət:* Həmd Məsihə,
Həmd Məsihə,
Məsih sevgisinə!

2. Rəbb gətirdi dünyaya
Sevgi sözünü,
Qəm dərəsindən gəlir
Sevgi nəğməsi.
O səslər yayılır:

Günah bağışlanır.

3. Pak sevgiylə canlanır
Sevgi sözləri.
Xoş gözəlliklə dolu
Sevgi sözləri.
Rəbbin xoş nəğməsi
Oyadır həvəsi.

## 5

*D* *(П.В-13)*

1. Xilaskarım, söylə Sən
Hər yerdə, hər zaman
Məhəbbət sözlərindən:
"Sizi tərk etmərəm!"
Sən bizə həvəs göndər
Sözünü dinləyək.
Doldur qəlbi nəğməylə,
Səninlə sevinək.

*Nəqarət:* Xilaskarım, söylə Sən
Müqəddəs sözündən,
Biz məğlub edilməzik
Səninlə yaşasaq.
Xilaskar, qoy qəlblərdə
Sönməsin ümidlər,
Eşidək sözlərini:
"Tərk etmərəm sizi!"

2. Xilaskarım, söylə Sən,
Aç səxavətini,
Doldur xoşbəxt himnlərlə,
Öyrət itaəti
Qoy Sənə sevgimizi
Bütünlüklə verək,
Xoş müjdəni yayaraq,
Məsihi gözləyək.

3. Sözünü söylə, Rəbbim,
Əhdini aç bizə,
Aşkar et səbəbləri,
Güc ver xidmət edək.
Bundan yaxşı bəxt yoxdur,
Səninlə yaşamaq,
İradəni yetirib
Səndə dinclik tapmaq.

## İbadət nəğmələri

### 6

*Fm* *(П.В-23)*

1. Göylərdə olan Atamız!
Qəbul et mənim duamı:
Heyrətli hər işlərində
Həmd olsun Sənin adına!

2. Sən Qüdrətli və Qadirsən,
Titrəyir qarşında hamı;
Hər şeyi görən, bilənsən,
Gəlsin Sənin Padşahlığın.

3. Hikmətlə dolusan, Rəbbim,
Qəlbimdə var arzum mənim:
Coşan həyat tufanında
Qoy Sənin istəyin olsun!

4. Rəhimli Rəbb, Padşahımız,
Həyat verirsən hamıya,
Bütün canlılar çağırır:
"Gündəlik çörəyi yetir!"

5. Haqlısan, mərhəmətlisən;
Borclarımızı bağışla,
Necə ki, biz də düşməni,
Bağışlayırıq ürəkdən.

6. Sənsiz heç günahsız varmı?
Sınaqda Sən bizi qoru!
Bizi, zəif bəndələri,
Şərdən, ya Rəbb, Özün qoru.

7. Rəbb, xeyirxahdır işlərin,
Əbədidir Padşahlığın,
Qüdrət və izzət əbədi
Sənindir, ya Rəbbim! Amin!

## 7

*E* *(П.В-35)*

1. Rəbbə yaxın olum,
Rəbbə yaxın,
Çarmıxdan keçsə də
Mənim yolum.
Lazımdır tək mənə:
Yaxın olum Rəbbə,
Yaxın olum Rəbbə,
Rəbbə yaxın!

2. Səhrada qəribəm,
Zülmətdəyəm,
Başım tək daş üstə
Dinclik tapar.
Qəlbən yuxuda da,
Yaxın olum Rəbbə,
Yaxın olum Rəbbə,
Rəbbə yaxın!

3. Yuxudan oyanıb,
Dua edim,
Göz yaşı yerinə,
Şükür edim.
Dərd də fərəh mənə:
Yaxın olum Rəbbə,
Yaxın olum Rəbbə,
Yaxın Rəbbə!

4. Mənim həyatımın
Son anında,
Göylərə Sən məni
Aparanda –
Əbədi sevincim:
Rəbbə olum yaxın,
Rəbbə yaxın olum,
Rəbbə yaxın.

## 8

*E* *(П.В-45)*

1. Rəbbim, qoru məni, Rəbbim, qoru!
Bəxş et, yaşayım mən qısa ömrü.
Kitabın əlimdə, Kəlamın dilimdə
Rəbbim qoru məni, Rəbbim, qoru!

2. Müdriklik ver mənə, söz dilimə,
Qəlbə sevgi göndər, Ruhundan ver,
Hər şey ilə təmin et, cənnətə Sən apar;
Rəbbim, qoru məni, Rəbbim, qoru!

3. Hər yerdə, hər anda Kalamından
Açıqsa söyləyim hünərindən,
Düşmən məni güdsə, hətta hədələsə,
Rəbbim, qoru məni, Rəbbim, qoru!

4. Əgər dünya məni məcbur qovsa
Möhkəm olum Sənin inamında.
Yolundan dönməyim, sadiq qulun olum,

Rəbbim, qoru məni! Rəbbim, qoru!

## 9

*Cm* *(П.В-61)*

1. Qəlbin Xilaskarıdır İsa,
Qoy qısılım köksünə!
Dar gündə dayağım ol mənim,
Tənha qoyma bu yolda.
Yalnız Sənə inanıram,
Ömrü Sənə verirəm,
İstərəm Səni mən görəm.
Sənlə olam, Rəbb İsam.

2. Lütf, həqiqət, mərhəmət – bunlar
Tək Səndədir, Xilaskar.
Yalnız Sənə can atıram mən,
Qəbul et – Səninəm mən!
Başqa sığınacaq yoxdur,
Mənim arxam Sənsən.
Məsihim, məni tərk etmə
Təlaşların içində.

3. Həyat çətinliyində qoru!
Sona çatdırım yolu,
Vətənimə çata bilim,
Orada rahat dincəlim.
Həyat mənbəyi tək Sənsən,
Susuzluğu yatıran

Müqəddəs və pak Ruhunla
Qəlbimdə Özün yaşa.

## 10

*Dm* *(П.В-68)*

1. Rəbbim, yalvarıram Sənə!
Rəbbim, köməkçimsən çətinliklərdə!
Mənimlə Sən ol, nemətli Allah,
Qoru məni çətin yolda
Qüdrətli əllərin ilə.

2. Rəbbim, nə qədər dərdlər var!
Rəbbim, Sənsən tək mənim sadiq Dostum!
Qəlbimlə Sənə dua edirəm,
Qəmli ürək sirlərimi
Təkcə Sənə söyləyirəm.

3. Rəbbim! Ümidimsən mənim!
Rəbbim! Etibar eləyirəm Sənə.
Arzulayıram, bütün qəlbimlə –
Səninlə əbədi olum,
Atamızın dərgahında.

## 11

*Em* *(П.В-75)*

1. Rəbbim, bilirsən arzularımı,
Duaları eşidirsən;

Özün bilirsən əzablarımı,
Məndə olan düşüncəmi.

2. Rəbbim, bilirsən axtarmıram mən
Dünyanın var-dövlətini;
Bütün qəlbimlə Səni sevirəm,
Səninlə olum daimi.

3. Qəlbim yorulur, qüssələnirəm,
Həyatda sevinc görmürəm...
Qəfəsdə quş tək, yenə tənhayam,
Susur mənim nəğmələrim.

4. Heç kim bilmir, hətta soruşmur,
Məni hara, nə cəlb edir,
Kim yol göstərər, təsəlli verər,
Əzabdan qəlb üzüləndə?

5. Yad oldu dünya, mən də dünyaya...
Öz dincliyini ver, Rəbbim!
Mübarizədən gücsüz olmuşam,
Uzaqdır gedəcək yolum.

6. Cəlb edir məni o uzaq göylər.
Qoy külək, tufan qoparsın,
Rəbb, inanıram, Sənin əllərin
Hər zaman qoruyar məni.

# 12

*Dm* *(П.В75)*

1. İlahi, Sən bilirsən mənim arzumu,
Mənim dualarımı eşidirsən;
Özün görürsən mənim əzablarımı,
Mənim olan düşüncəmi.
İlahi, bilirsən, heç axtarmıram
Bu dünyanın var-dövlətini,
Bütün qəlbimlə sevirəm Səni,
İstərdim Səninlə olam.

2. Tez-tez qüssələnirəm, qəlbim yorulur,
Həyatda şənliyi, sevinci görmürəm...
Qəfəsdəki quş təki mən çırpınıram,
Və susur mənim mahnılarım.
Heç bir kəs bilmir, kimsə soruşmur,
Məni hara və nə cəlb edir,
Kim təsəlli verib yol göstərər,
Ürəyim çox-çox sıxılanda?

3. Dünya mənə yad oldu, mən də dünyaya
Ah, İlahi, ver Öz rahatlığını!
Mübarizədə yorulmuşam, gücüm yox,
Uzaqdır yolum qarşımda.
İlahi, bilirsən, heç axtarmıram
Bu dünyanın var-dövlətini.
Bütün qəlbimlə sevirəm Səni,
İstərdim Səninlə olam.
Daimi Səninlə olam.

## 13

*Hm* *(П.В-78)*

1. Allahım, sirlərim Səndən heç gizli deyil
Əzablarımı tam bilirsən.
Necə günah qəlbi yaralayır,
Bilirsən, ya Rəbbim, bilirsən.

2. Hər dəfə qüvvədən düşürəm, Sən bilirsən,
Arzum budur, Rəbbim, pak olum,
İtaətlə ardınca mən gedim,
Bilirsən, ya Rəbbim, bilirsən.

3. Çarmıxda Öz qanını axıdıb ölmüsən,
Sən xilas edirsən zalımı.
Əzabda sevgi ilə yalvarmısan:
"Bağışla, bağışla onları".

4. Bilirsən, Qanınla təmizlənmiş insanı
Məskənində dinclik gözləyir,
Lakin Sənin yolundan çıxsam mən,
Bağışla, bağışla, Rəbb, məni.

## 14

*Fm* *(П.В-103)*

1. İbadətim, ibadətim!
Allahdan sən verildin.
Qəm-qüssədən və kədərdən
Çıxarırdın məni Sən.

Gecəni mən yatmayıb,
Diz üstə dayanırdım,
Qəlbimlə Allahla danışdım:
“Eşit məni, Allahım
Nə çoxdur əzablarım
Kömək et, qüçdən düşmüşəm mən!”

2. Bayirda çovğun küləkdir,
Buzlu qar da töкülür,
Beləcə də tufan qəlbdə
Bu axşam məni üzür.
Mən Rəbbin qarşısında,
Toz və küləm, heç nəyəm,
Ağlayıb İsaya yalvardım:
“Ya Rəbbim, Sən bilirsən,
Qəlbimin ağrısını,
Əldən düşüb yıxılıram mən”.

3. Qayğısız və boş günləri
Arzulamıram, Rəbbim,
Qoy yolumda qəm-qüssəni
Və kədəri mən tapım.
Bir arzum vardır mənim,
Qoy güclü əllərini
Çiynimdə hər an mən hiss edim.
“Sənin güclü əllərin,
Mənə təsəlli verir,
Həyatın çətin döyüşündə.

4. İbadətim, İbadətim!
Təşəkkürlə yanıram,
Həmd edirəm, Rəbb Allahın
Lütfünə və gücünə,
Müqəddəs məhəbbətin
Ruhuma güc verirdi,
Zəif olub mən yıxılanda.
Göylərə mənim ahım
Qəmli yerdən yüksəlir,
İbadətdə sevinc tapırdım.

## 15

*Em* *(П/Г-189)*

1. İlahi, qarşında ibadət ilə mən
Diz çöküb şükürlər Sənə edirəm,
Allah, yalvarıram məhəbbətin ilə
Təmizlə, aydın et, həyatımı Sən, təmizlə.

2. Gözümü ilk dəfə Sən açdın, İsam,
Mən özümü yazıq, məzlum sanıram.
Göz yaşları ilə tövbəyə gəldim
Bu səhər, İsam, mən Səni tapdım, tanıdım.

3. Başımın üstünə Sən sevgi ilə
Baş əyib, soruşdun: “Məni sevirsən?”
Məzəmmətlə yox, mülayim səslə.
Ömürlük Sən məni əlində saxla, əlində.

4. Yerin gözəlliyin, vurnuxma, çirkinliyi
Məsihin səadətinə dəyişdim.
Bu həyatda heç nə daha lazım deyil
Əgər Sən, İsam, bunları alsan, ey İsam.

## 16

*Em* *(П.В-101)*

1. Sənin Oğlunun dualarına görə,
Ey Ata, məni Sən atma, saxla!
Lakin müqəddəs Kəlamına görə, İlahim,
Öz həqiqətinlə Sən işıqlandır.

2. Hər gün Sən məni Özün yönəlt
Sənin əbədi Kəlam güzgünə tərəf,
Onda məhəbbətlə dostumu Sən aç, İlahim,
Günah toxumlarımı göstər, İlahim.

3. Ruh və qəlbimin sirli yerlərinə,
Qılınc kimi Sən daxil ol Sözünlə
Cismani fikirləri, Rəbbim, Sən Özün yayındır
Qəlbimi pis fikirdən Sən uzaqlaşdır.

4. Rəbbin Kəlamı – su mənbəyidir,
Günahlıların lütfü üçün o axır.
Məni canlı çaya tərəf Sən apar, apar, İlahim,
Onun suyu ilə yuyulur qəlbim!

# 17

*Em* *(Ю/И-216)*

1. Xilaskarım, Sənə yalvarıram
Mənim yaralı qəlbimlə;
Qarşında göz yaşı axıdıram,
Sənə mən baxıram ümidlə.
Mənə uzat Öz müqəddəs əlini,
Təmizlə günahdan məni;
• Ürək əzabımı unutmaq istərəm
• Yalnız Səndə dincliyi taparam.

2. Sənin önündə mən baş əyərəm,
Qoynunda dincələrəm Sənin...
Ehtiyacla heç kəsə getmərəm,
Düşündürmür dərdim onları.
Sən isə sakit axşam işığı təki,
Qəlbimə verərsən təsəlli,
• Ürəkdən çıxarıb iti tikanı
• Göstərərsən yolun davamını.

3. Sən Özün güc, dözüm, səbir ver mənə,
Çarmıxı dinmədən daşıyım,
Nə vaxt büdrəmə daşına rast gəlsəm,
Ondan üzümü mən döndərim.
Bütün qəlbimlə, lakin görkəmimlə yox
İnsanları mən bağışlayım,
• Lazım olanda qulluq eləyə bilim,
• Bütün qəlbimlə onları sevim.

## 18

*Dm* *(Ю/И-222)*

1. Rəbbim İsa, mənim yanıma gəl,
   İşıqlandır qəlbimi zülmətdə,
   Gücləndir kədər qəlbə dolanda,
   Ruhlandır həqiqət sözünlə,
 • İsa Məsih, mənə Sən kömək eylə.

2. Sən, İsam, yanıma gələndə –
   Qəlbdə məhəbbət alovu yanar
   Və acı əzab kasasını tam,
   Çəkinmədən, mən qəbul edərəm,
 • Ona görə ki, Sən mənimləsən.

3. Bu dünyada Rəbsiz qaranlıqda,
   Çox lazımsan, Məsihim, Sən mənə;
   Güc ver mənə ki, elə yaşayım,
   Əbədi Diyara çata bilim,
 • Və daimi mən Səninlə olum.

## 19

*Em* *(Ю/И-226)*

1. Daha çox Sənə sevgi, Sənə İlahim!
   Yalvarışımı eşit Sən, Rəbbim;
   Hər anıma görə sevgindən ver,
   Daha çox Sənə sevgi,
   İlahi, daha çox Sənə sevgi.

2. Hər neməti, səadəti bu yerdə axtarırdım;
Qarşında inamla diz çökdüm.
O zaman ürəyimlə anladım,
Mənə lazımdır böyük sevgi,
İlahi, daha çox Sənə sevgi.

3. Əmək, əzab məni qorxutmaz, nə əziyyət,
nə kədər.
Allah elçiləri sülh yetirər;
Onlarla indi oxuyuram mən:
Daha çox Sənə sevgi,
İlahi, daha çox Sənə sevgi.

4. Əbədi sakitliyə gedən zamanda
Hər an duamla durum qarşında.
Mənə verdiyin hər şeyə görə;
• Daha çox Sənə sevgi,
İlahi, daha çox Sənə sevgi.

## 20

*Em*

1. Yalnız Sən, ya Rəbb
Ürəyimin arzusunu
Verərsən, ya Rəbb,
Sənə yaxın olmağın
Yerini heç nə
Verə bilməz, Rəbbim mənim
Xilas edən Rəbbim mənim,

Rəbbim mənim.

*Nəqarət:* •Yalnız Sən duamı eşidərsən,
•Yalnız Sən yeni həyat verən,
• Qəlbimi fərəhləndirərsən,
• Ürəyimin səsini duyarsan.

2. Səni sevirəm, ya Rəbb,
Ürəyimin istəyini
Sən ver, ya Rəbb,
Sənin sevgini hiss edirəm.
Doldur məhəbbətinlə
Ürəyimin dərinliklərini
Xilas edən Rəbbim mənim,
Rəbbim mənim.

## 21

*Em*

1. Allahım, öyrət məni,
Sərbəst dua etməyi.
Dilimlə yox, ürəkdən,
Gəlsin dua könlümdən.

*1-ci Nəqarət:* Ver mənə böyük qüvvə,
Dərdimi mən danışım.
Sənə dua edən zaman,
Günahdan uzaqlaşım.

2. Öyrət məni edim dua,
Çətin, ağır günlərimdə.
Həyatımda yorulanda,
Olsun dua qəlbimdə.

*2-ci Nəqarət:* Ver mənə böyük qüvvə,
Düşməyim uzaqlara.
Sənə dua edən zaman,
Dolum Müqəddəs Ruhla.

3. Səninlə gedən zaman,
Haqsız yoldan uzaqlaşdım.
Məhəbbətinlə işıqlandım
Dualardan ilham aldım.

## Həmd və minnətdarlıq

### 22

*Cm* *(П.В-168)*

1. Məhəbbət, səadət, xilasa görə,
Minnətdarıq Sənə, Rəbbimiz.
Qoy qəlbimizdən bahar mahnısı tək
Sənin üçün ucalsın bu himn.

*Nəqarət:* Minnətdarıq, minnətdarıq,
Sevginə görə minnətdarıq;
Təkcə Sənə minnətdarıq,
Minnətdarıq sevginə görə!

2. Dirilmiş ürəyim heç ağlamasın,
Yalnız qoy sevinc ilə dolsun;
Günahımı bağışlayıb Məsihim,
Cənnətə qapı açıq olsun.

3. Nə vaxt dünyəvi işlər ötüb-keçsə,
Nə vaxt dünyəvi işlər ötüb-keçsə,
Sənin əbədi şəfəqində,
Ətrafda səmimi qəlbdən yayılsın:
"Rəbbim! Sənə şükürlər olsun!"

## 23

*Gm* *(Ю/И-21)*

1. Hər bir gün, hər bir ana görə
Sənə, Rəbbim, minnətdaram mən;
Günəş şuasına, küləyə görə,
Sən öyrədirsən inamla sevməyə!
Günəş şuasına, küləyə görə,
Sən öyrədirsən inamla sevməyə!

2. Mənə görə çarmıxda əzab çəkdin.
Mənim yaşamağımçın canını fəda edtin!
• Gecə keçdi, daha yoxdur ayrılıq,
• Sənə xidmət edə bilərəm indi.

3. Nə ehtiram, nə şöhrət axtarıram,
Mən Sənin ən kiçik övladın olmaq istərəm.
• Minnətdaram verdiyin ixtiyarına –
• Kədər içində Sənə həmd edərəm!

# Məsihçi sevinci

## 24

*Dm* *(П.В-194)*

1. Gəlin sevinək, qardaşlar,
   Yox olsun qorxu, kədər.
   Bu yolda hər çətinlikdə
   Məsih bizi qoruyar.
   Rəbbin müqəddəs işinə,
   Sevinək biz həmişə,
   Həyəcansız və fərəhlə
   Biz Ona şükür edəк.

2. Əvvəl ölüm hər bir anda
   Qorxudurdu yollarda,
   Lakin Məsih Öz hökmüylə
   Apardı Öz ardınca.
   Kasıb, köhnə paltardaydıq,
   Zənginik indi Onda,
   Vəd etmiş xəzinəsini
   Bizə verər cənnətdə.

3. Korlar kimi biz azmışdıq
   Günahlı yolumuzda;
   Səma və ruhun işığı
   Nur verdi gözümüzə.
   Əgər qəm-qüssə, tamahı
   Göndərsə həyat bizə,

İmanımızın gücü ilə
Qalib gələrik ona.

4. Qoy fəlakət və sınaqda
Yoxlansın ürəyimiz,
Möhkəm olar imanımız,
Bizimlədir Rəbbimiz!
Mükəmməldir sevincimiz,
İnsandan yox, Məsihdən,
Kainatın heç bir şeyi
Ayırmaz bizi Ondan.

## 25

*Gm* *(П.В-215)*

1. Başqa təsəlli yoxdur
Və bolluca sevinc,
Nə vaxt ki, Yaradanla
Ünsiyyətdəyik biz.

*Nəqarət:* Xoşdur, gözəldir
Allahla əbədi olmaq;
Xoşdur Onunla
Ünsiyyətdə olmaq.

2. Rəbbimlə ünsiyyətdə,
Müəllimim ilə,
Çalışqan şagirdlərə
Çoxlu bilik verər.

3. Qüdrətli Allahımla
Xoşdur birgə olmaq;
Atanın himayəsi
Bizə məskən verər.

4. Gözəl ünsiyyət vardır,
Dostluq ünsiyyəti;
Haqq, ədalət oradadır,
Oradır Məskənim!

5. Gözəl, xoş ünsiyyətdir –
Şirin söhbətimiz;
Qələbə ünsiyyəti
Müqəddəslikdədir.

## 26

*Dm*
1. Ucalarda olan Rəbbim, mənim Rəbbim.
Səni inamla axtardım, mən axtardım.
Eşitdiyim nur sözündən, nur sözündən,
Alovlandım, alovlandım mən sevincdən.

*1-ci Nəqarət:* Rəbbin adı olan yerdə,
Gözəl inam olur məndə, olur məndə
İnam yeni həyat verir, inam qəlbi
sevindirir, sevindirir, sevindirir.

2. İnan, həyat çiçəklənər, çiçəklənər,
Məhəbbətlə ətirlənər, ətirlənər.
İnam, sevgi də yaşayar, yaşayar.
Günahların bağışlanar, bağışlanar.

*2-ci Nəqarət:* Dünyanın sonu gələcək,
Günəş işığı sönəcək, sönəcək,
Hələ ki vaxt var, günahkar,
Rəbbim səni də bağışlar,
Bağışlar, bağışlayar.

3. Sevgin, lütfün nemətdir, nemətdir.
Hər zaman sevgi diridir, diridir
Rəbb Məsihə olan sevgi, olan sevgi,
Paydır mənə, gözəl vergi, gözəl vergi.

## 27

*Dm*

1. Günahlı gəzirdim mən,
Bilmirdim nə edim,
Kim azad edər məni,
Bu dözülməz dərdlərdən.
Nə edim, nə edim,
Bilmirdim nə edim.
Günahlardan, kədərlərdən
Kim azad edər məni.

2. Məsihə mən rast gəldim,

Lütfünü qəbul etdim.
İndi mən xoşbəxtəm,
Günahlardan mən uzağam.
İsaya rast gəldim,
Lütfünü qəbul etdim.
İndi mən xoşbəxtəm,
Övladın olmuşam.

3. İndi sevinirəm mən,
Məsihin xilasına.
Hamıya söyləyirəm
Onun mərhəmətindən.
İndi mən sevinirəm,
Qoşulun sevincimə
Məsihlə yaşasan,
Onda xoşbəxt olarsan.

4. Yorğun olmuş dostum, gəl
Məsihin sözünə inan.
Rahatlıq taparsan sən,
Əgər sözünə inansan.
Ey yorğun dostum, gəl
Rəbbin sözünə inan
Rahatlıq taparsan,
Onu qəlbinlə sevsən.

Rəbb qovmaz kimsəni
Yanına gələnlərdən.
Sevinclə qarşılayar
Övlad eləyər səni.

## 28

*Fm* *(П.В-111)*

1. Hədsiz böyükdür Məsih sevgisi:
Əvvəli yox, axır o çay kimi,
Dalğa təki sahilləri yuyur,
Dərindir, genişdir və nurludur.

*Nəqarət:* Və olmasaydı məhəbbət,
Məsihdə tək, o məhəbbət,
Biz yaşayardıq ümidsiz,
Cənnətsiz və əbədi sevgisiz.

2. O sevibdir səni, məni çoxdan.
O sevibdir, Onu sevməyəni.
Sevir təkrarən: “Yox!” deyənləri,
Sevgiylə çağırır hər bir kəsi.

3. Rəbb sevgisin əgər bilsəydik biz
Yaşaya bilməzdik bir an Onsuz,
Dünya onda məhv olardı çoxdan,
Əgər məhəbbət alınsa bizdən.

4. Tez gəl, səni Xilaskar gözləyir,
Bağlı qapıda O çoxdan durur,
Aç qapını, vaxt azdır, Rəbb döyür,
Götür bəxş edilən məhəbbətin.

## 29

*Am* *(Ю.И-40)*

1. Məsihim – müqəddəs xəzinəmdir!
Qəlbim bir şey tapa bilərmi?
Dünyada Sənin adından üstün,
Adından yüksək bir şey varmı?
Sən müdriksən, işıq mənbəyisən,
Xeyirxahlığın mənbəyisən.
Təkcə Sən məni ruhlandırırsan,
Sən bu gün və sabah eynisən.

2. Mən Səninlə razıyam, xoşbəxtəm
Günüm hətta olsa da acı,
Səninlə darısqallıq da xoşdur,
Səninlə hər yerdə yaxşıdır.
Sənə heç bir şey tay ola bilməz,
Sənsiz mənə hər şey gərəksiz,
Ruhum, İsam, tək Sənə yönəlir,
Yalnız Səni qəlbim axtarır.

## 30

*Dm* *(П.Г-27)*

1. Həyat nə gözəldir – hər insan bilir.
Mənasın bilən üçün – daha gözəldir.
• Yaradan qəlbində əgər yaşasa,
• Mənalı həyatı onda taparsan.

2. Həyat mənası onda aydın görünər,

“Sevirəm” səsini ürək eşidər.
• “Əbədi Atanam, sevirəm səni,
• Yolumda pislikdən saxlaram səni”.

3. Necə də xoşbəxtik, Rəbb bizimlədir,
Qəlbimizdə sevinc hey aşıb-daşır.
• Həyatda Məsihlə necə də xoşdur.
• Atanın yanında qəlb yurdun tapır.

4. Məsihin yanına gəlməyə tələs,
Qəbul edər səni, rahatlıq verər.
• Həyat boyu səni Rəbbin qoruyar,
• Əbədi Diyarda səninlə olar.

# İnam və ümid

## 31

*D* *(П.В-226)*

1. Tam inanıram: İsam mənim!
Mənim sevincim və təsəllim;
Göy mirasın vermək istəyir,
Onunla olmaq necə xoşdur!

*Nəqarət:* Daim oxuyum təntənəylə
Əbədi olan Xilaskardan!
Daim oxuyum təntənəylə
Əbədi olan Xilaskardan!

2. Tam inanıram: nə vaxt ki, mən
Tövbə etmişəm, övladıyam.
Sülh yayılıbdır ürəyimə,
Rəbdə tapmışam sülh qəlbimə.

3. Tam inanıram: Öz əliylə
Məni qoruyur hər bir yerdə.
Nə olur-olsun – şəndir ruhum:
Mənimlə olur mənim Dostum.

4. Təsəlli və sülh tapır ruhum
Səninlə olam, budur arzum.
Qoy qəlbimi mən Sənə verim,
Sən yüksələsən, mən alçalım.

## 32

*C* *(П.В-255)*

1. Günahdan xilas oldum,
Allaha mən qovuşdum,
Ürəkdən inanıram İsaya mən;
Sakitlik mənə verdi,
Canımı azad etdi,
İnanıram Allahın Oğluna.

*Nəqarət:* İnanıram, inanıram,
Ürəkdən inanıram İsaya mən!
İnanıram, inanıram,
İnanıram Allahın Oğluna.

2. O məni satın aldı,
Mən Ona iman etdim,
Ürəkdən inanıram İsaya mən;
Sevgidə əbədidir,
Qəlblərin məlhəmidir,
İnanıram Allahın Oğluna.

3. Necə də mənə xoşdur!
O hər an mənimlədir,
Ürəkdən inanıram İsaya mən;
Əbədi həmd eləyək,
İsaya xidmət edək,
İnanıram Allahın Oğluna.

## 33

*Fm* *(П.В-271)*

1. Ehtiyacım var Sənə, Xilaskar,
İstəyirəm Səninlə olam.
Sən, Rəbbim, sevimli Müəllimim,
Ümidim və mənim həyatım.

*Nəqarət:* Rəbbi sevirəm, gözlərəm,
– Çətindir bu yolda,
Mən Rəhbərsiz, Xilaskarsız
Yeriyə bilmərəm.

2. Ürəyim təmizlənmək istəyir,
Cismimsə əksinədir bunun –

Mübarizə kəsilməyir hələ…
Göylərə nə vaxt çataram mən?

3. Həyatın ən çətin günlərində
Yorulur qəlbim əzablardan.
Təsəlli sözlərini söylə Sən,
Səninlə həyatım yaxşıdır.

## 34

*Am*

1. Varlığımla Sənə balğıyam, İlahi,
Qəlbimin alovu alışır,
Həyəcan içində döyünür ürəyim,
Kəlamın məni ruhlandırır.

*Nəqarət:* • Yalvarıram Sənə, taqətim yox, İlahi,
• Gəl ümid çırağımı yandır, yandır.

2. Müqəddəs alovu qəlbimdə Sən yandır,
Sən qaytar xilas sevincimi,
Günahdan azad et Sən məni, ey Tanrı
Dayağım və arxamsan mənim.

3. İblis yenə yolumdan çıxarır məni,
Aparır uçuruma doğru
Böyük inam məni saxlayır, İlahi,
Sən göstər təmizliyə yolu.

## 35

*F*

1. • Məhəbbət ürəkdə heç zaman sönməz,
• Sən mənə, İlahim, qüvvət verəndə,
Böyük bir çinarı qopara bilməz,
Sən ona, İlahim, özək verəndə.

2. • Sən mənim ömrümün mənası oldun,
Sən mənə, İlahim, həyat verəndə.
Sən kiçik könlümün Ağası oldun
• Pənahı İsaya mən gətirəndə.

3. • İblisin qorxusu dondura bilməz
• Sən mənə, İlahim, qüvvət verəndə.
Kor olmuş bu gözlər, heç zaman görməz
Sən ona, İlahim, nur verməyəndə.

4. Yandırdığın ocaq heç zaman sönməz
Közərib qalsa da, tüstüsü ölməz.
• İbadət dünyada qurtara bilməz
• Sən bizə, İlahim, qüvvət verəndə.

## 36

*Fm*

1. Tənha qalanda dünyada
Çağır Rəbbini o anda,
Verər sənə Öz əlini
Bu yolda sən yorulanda.

*1-ci Nəqarət:* Tənha qalanda dünyada
Kömək əlini O uzadar.
Ölümdən səni qurtarıb
Həyat yoluna aparar.

2. Ona ümid bəsləyəndə
Adı ilə yaşayarsan sən.
Diri Kəlam sözlərini
Qəlbində sən daşıyarsan.

*2-ci Nəqarət:* Yaratdı bizim dünyanı
Ona gözəllik verərək,
Hər bir insanı sevərək
Öz Oğlunu qurban verdi.

3. Öz Xilaskar əllərinlə
Bizi günahdan qurtardın.
Möcüzəli dünyamızdan,
Sonsuz həyata apardın.

*1-ci Nəqarət:*

## 37

*Dm* *(П.Г-216)*

1. Qarşında mən diz çökərək,
Sənə baş əyirəm,
Gizlət məni bəlalardan Sən sevən əlinlə,
Mən yoruldum, yenə tənhayam.

Mən yoruldum, yenə tənhayam.

*Nəqarət:* Həyat yolunda minlərlə yol var,
Düz yolu tapmaq çətindir, çətindir,
Əgər həyatda Məsihi seçsən,
Gözəl diyara O çatdırar.

2. Lütf taxtı qarşısında yalvarıb baş əyirəm,
Ürəyimlə danışacam Sənlə təklikdə.
Yalnız Sən anlarsan qəlb əzabımı, Məsihim
Və rahatlıq yollarsan mənə.

## Məsihin ardınca getmək

### 38

*Cm* *(П.В-284)*

1. Göylərə gedirik tikanlı yolla,
İnanıb biz ürəkdən Məsihə,
Cürətlə gedirik əbədiliyə,
Dillərimiz qoy həmd etsin Rəbbə.

2. Qaranlıq qüvvələr əhatə edir,
Qəlbimizi məhv etmək istəyir.
Məsihə sadiq qalaq ölənədək!
Vəfalı olaq Ona, sonadək!

3. Yadımızdadır Xilaskarın sözü:
“Mənim kimi qovacaqlar sizi”.
Məsihə can ataq dönmədən geri,
Qoy Rəbbin Ruhu qəlbdə sönməsin.

4. İsa Məsih qayıdacaq tezliklə,
Dostlar, bizi qaldıracaq göyə;
Məsih Məkanına tez köçəcəyik,
Dar yolumuz ucalır göylərə.

5. Kimdə hələ ürək döyüntüsü var
Bilin, dərd-qəmin sonu çatacaq.
Zaman ötür, O hələ də gözləyir
Oyanın, artıq Rəbbimiz gəlir!

## 39

*Gm* *(П.В-301)*

1. Xilaskarım, hara aparsan,
İstəyirəm ardınca gəlim,
Kömək et, çarmıxı aparım,
Şikayətsiz, sevinclə gedim.

*Nəqarət:* Əgər mən yıxılsam bu yolda,
Öz əlini uzat Sən mənə.
Kömək elə ardınca gəlim,
Axı mən Səni çox sevirəm.

2. Həyatım xoş olanda mənim,

Dalınca mən rahat gedirəm,
Nə vaxt ki, qəm-qüssə gələndə,
Kömək et, mən çatım göylərə.

3. İmanımı möhkəm Sən saxla,
Ümidimi Sənə bağladım.
Mənə görə əzab Sən çəkdin,
Onlardan gərək mən də çəkim.

## 40

*Dm* *(П.В-318)*

1. Əziz İsa Xilaskar!
Mənim ən yaxın Dostum;
Sənə qurban verirəm verirəm:
Ürəyimi, canımı.

2. Mənim ən yaxın Dostum;
Günah, yalan içində.
Sən məni çox sevmisən sevmisən,
Öz qanınla yumusan.

3. Məhəbbətin, nəğməsin
Ürəyimə vermisən,
Güc ver ardınca gedim, gedim,
Sadiq qalım yolunda.

## 41

*Dm* *(Ю.И-116)*

1. Səninlə olmaq istəyirəm,
   Sevimli Xilaskarım.
   Qulluq etmək istəyirəm
   Sənə hər vaxt yer üzündə.
   - Mənə həyat yoxdur Sənsiz,
   - Mənə səadət yoxdur Sənsiz,
   - Yalnız Səndə nur şəfəqi,
   - Əbədi işıq mənbəyim.

2. Günahlardan mən əzab çəkdim,
   Onlardan azad etdin,
   Yolunu azmışı Sən sevdin,
   Yeni həyata diriltdin.
   - Mən təmizlənmiş qəlbimlə
   - Rahatlığı Səndə tapdım,
   - Sən sevinc gətirdin mənə
   - Mənim sevimli Məsihim

3. Unudulmazdır əzabların,
   Günahsız qan axıtdın,
   İşgəncə içində öldün,
   Həyatını qurban verdin.
   - Yalnız Səndə olmaq istəyirəm,
   - Yalnız Sənə xidmət etmək istəyirəm
   - Yalnız Səndədir ümidim,
   - Sənsən mənim gələcəyim.

## 42

*C* *(П.В-285)*

1. Öz balanı Sən apar,
Yolumda ol işığım,
Əziz İsa Xilaskar,
Məlumdur Sənə ahım.

*Nəqarət:* İsa, Xilaskarım,
Qoyma yolundan dönüm.
Sən məni hər vaxt apar,
Haradadır gözəl Diyar?

2. Günahmı azdırmaq istəyir,
Hər an Xilaskar qoruyur.
Heç nədən qorxmuram,
Tək Ona güvənirəm.

3. İnanıram, Sən qoruyursan,
Heç vaxt məni atmazsan,
Öz Diyarına aparıb
Göz yaşımı silərsən.

## 43

*Dm* *(П.В-309)*

1. Qorxumu ürəyi sıxır?
Ya Rəbbim, qoru!
Şübhədənmi səsim əsir?

Sən məni qoru!

*Nəqarət:* Sən əlimdən tut,
Sən əlimdən tut,
Ey Qüdrətli Xilaskarım,
Hər zaman qoru.

2. Əgər azdıran yaxınsa,
Ya Rəbbim, qoru!
Xilasa inamım artsın,
Sən məni qoru!

3. Aydın, ya tutqun günlərdə,
Ya Rəbbim, qoru!
Kədərdə və ya sevincdə
Sən Özün qoru!

4. Qaranlıqmı yolu tutub,
Ya Rəbbim, qoru!
Nurundan işıq saçılsın,
Sən məni qoru!

5. Mismar deşmiş əllərinlə
Göylərə apar,
Orada mən yeni qəlbimlə
Mədh edim Səni.

## 44

*Dm* *(Ю.И-158)*

1. Söhbət etmək istəyirəm Səninlə,
   Mənim yaxşı və vəfalı Dostum.
 • Sən mənə səmadan bax o an,
 • Ürəyimin döyüntüsün sakit elə.

2. Söhbət etmək istəyirəm Səninlə,
   Ağır yük olan dərdi mən atım.
 • Heç kimə aça bilmirəm mən,
 • Ürəyimin ağrısını, İsam mənim.

3. Mən Səninlə danışmaq istəyirəm,
   Dostlarım uzaqda olduğu üçün.
   Onlara dərdimi demərəm
   Və ürək kədərimi danışmaram mən.

4. Söhbət etmək üçün yanına gələrəm.
   Ətraf qaranlığa qərq olanda,
 • Səmadan Sən nəzər sal mənə
 • Və ən əziz vəfalı Dostum kimi gəl.

## 45

*Dm*

1. Mən Səni sevirəm, mənim Məsihim,
   İmanım, gümanım və Xilaskarım,
   Təmizlə qəlbimdən nifrəti, kini
   Mən də olum saf Sənin kimi.

*Nəqarət:* Əbədi deyildir heç nə dünyada,
Qoşulmayacağam heç bir fəryada.
İnamı itirsəm uçurumdayam,
İnansam, o cənnət qapısındayam.

2. Qurban tək gəlmişdin o zaman yerə,
Mələklər də kömək etmədi Sənə.
Ömürlük bağlanmaq istərdim Sənə,
Axıtdığın, Rəbbim, o qana görə.

## 46

*Dm*

1. Həyatının Rəbbi olub
Onun adı İsa Məsih!
Bu gün mənim Rəbbim olub
Allah Oğlu İsa Məsih!

*Nəqarət:* • Allah Oğlu İsa Məsih!
• Bu gün mənim Rəbbim olub.

2. Həyatını qurban edib
Bizim üçün İsa Məsih
O bizləri xilas edib,
Müqəddəs tək İsa Məsih!

3. Xilaskar tək, İsa Məsih,
Tanıtdırdın Özünü Sən,
İnsanlara, İsa Məsih,
Qurban etdin Özünü Sən!

# 47

*Em*

1. Əbədi bizə yol açdı,
Yolumuza işıq saçdı,
Gəlib ürəklərdə yaşadı,
İsanın müqəddəsliyi.
\\Gəlib ürəklərdə yaşadı
İsanın müqəddəsliyi.\\

2. Hər zülmə O tab gətirdi,
Bizə də işıq yetirdi,
• Əbədiliyi bəxş etdi
• İsanın müqəddəsliyi.

3. Bizi düşməndən İsa aldı,
Günahlar uzaqda qaldı.
• Həqiqət yoluna saldı
• İsanın müqəddəsliyi.

4. Biz Allahın övladları,
İblisinsə düşməniyik.
• Açdı cənnət qapısını
• İsanın müqəddəsliyi.

# 48

*Dm*

1. Nə üçün məni yaratmısan,
Ürək və can vermisən?
Sənsiz, Rəbbim, bu dünyada
Rahat olmaz ürəyimə, ürəyimə.

*1-ci Nəqarət:* • Kömək elə, kömək elə
• Ürəyimlə, ürəyimlə
• Yaxınlaşım, yaxınlaşım
• Yaxın Sənə, yaxın Sənə.

2. Hər gün çörək verirsən,
Hər gün məni sınayırsan,
Hər gün məni gözləyirsən,
Qayıt insan, qayıt insan, qayıt insan.

3. Sənsiz, Rəbbim, azmışam mən,
Sənsiz yol tapa bilmirəm.
Sənsiz zülm çəkirəm mən,
Yaşamaq heç istəmirəm, istəmirəm.

4. Şükür Sənə, mənim Rəbbim!
Həqiqəti göstərdin,
Xilaskarı Sən göndərdin,
Günahlardan azad etdin, azad etdin.

*2-ci Nəqarət:* Qoy hər zaman, qoy hər zaman

Ürəyimdə, ürəyimdə
Yaxın olum, yaxın olum
Yaxın Sənə, yaxın Sənə.

## 49

*Em*

1. Uca Rəbbin yolunda
Qurtuluşla Nur tapdım
Və bu yolda xoşbəxt oldum.
Rəbbim, başım üstündə dur!
Başım üstündə dur!

*1-ci Nəqarət:* • Səcdə edim inamla,
• Qəlbim ilə, canımla
• Çarmıxdakı qanınla
• Hər vaxt məni təmizlə.

2. İzzət ver, ey Yaradan,
Tut əlimdən hər zaman,
Müqəddəs Ruhla hər an,
Qoru məni günahdan,
Məni günahdan.

*2-ci Nəqarət:* • Yolun çətin, təmizdir,
• Sevgiümman, dənizdir,
• İsmin candan əzizdir,
• Ürəyimdə məbəd qur.

3. Şükür, Səmavi Atam,

Oğlunla qurtulmuşam.
Sənin sonsuz lütfünə
Qəlbimlə inanmışam, inanmışam.

## 50

*Em*
1. İntizar hissi ilə ürəyim dolanda,
İlahim qaya tək arxamda durur.
Qəlbimə zülmət dolanda,
O bir şam olur.
Mən isə, İlahim, Sənə
Sadiq qala bilmədim.
Mən isə, İlahim, Sənə
Sadiq qala bilmədim.

*Nəqarət:* Təmizlə Sən məni, Allahım mənim,
Həyatım, yolum və həqiqətim.
İnamım az olsa, bağışla Sən məni,
• Günaha batanda təmizlə məni.

2. Sən mənə can verdin və qüvvət verdin
Həqiqətlə dolu bir həyat verdin,
Xilas olmaq üçün Oğlunu göndərdin.
• Mən isə, İlahim, Sənə
• Sadiq qala bilmədim.

## 51

*Em*

1. • Əziz İsam mənim,
• Mənim Xilaskarım.
Qardaş oldun bizə,
Yoldaş oldun bizə,
Sirdaş oldun bizə,
Mənim İsam mənim.

2. • Axıtdın Sən qanı
• Əzablar içində
Çatdırdın murada
Şükür olsun Sənə.
Xilas verdin mənə,
Mənim İsam mənim.

3. • Müqəddəs bir yola
• Apardın Sən bizi.
O nur saçdı bizə,
O yol açdı bizə,
Adın Müqəddəsdir,
• Mənim İsam mənim.

## 52

*Dm* *(П.Г-154)*

1. Uca, mavi göylərə
Qəlb arzu ilə çağırır.
Bir oldu taleyimiz

Bu canlı imanımız.

*Nəqarət:* O bizi doğma edib,
O bizi dost eləyib,
Yeni ad bizə verib:
Məsihçidir adımız.

2. İsa Dostumuz oldu,
Əməlindən bilirik.
Sağaldır xəstələri,
O yox edir kədəri.

3. Xilası O bəxş edir,
Sülh və sevinc qədərsiz.
Yenidən doğuluşu –
İman edənə verir.

## 53

*Em*

1. Yaşamaq asandır
Qəlbim Səndə rahatlıq tapanda.
Necə də yaxşıdır
Ehtiyacım heç olmayanda,
Nə vaxt ki, çiçəyin
Gözəl ətri hər tərəfə yayılar,
Bahar vaxtı çöllər
Və yaşıl bağlar çiçəklənər.

2. Yaşamaq asandır

Həyatın su kimi təmiz olsa.
Quyu suyu təki
Həm sərin, həm şəffaf, pak olsa.
Səhər yenə də sən
Quşların səslərin eşidərsən,
Lap erkən günəşin
Şüalarını göydə görsən.

3. Lakin sənin qəlbin
Nə vaxt ki həyəcanlı olanda,
Həyatın dalğa tək
Heç vaxt rahatllıq tapmayanda,
Əbədi, Heyrətli
Allahın əgər lütfünü sən duysan,
Duanın dadını his etsən,
Onda sən xoşbəxtsən.

## Tövbəyə çağırış

### 54

*Em* *(П.В-404)*

1. Məsihi çağır, günahlı
Və bədbəxt olan insan!
Yanına gələr tezliklə
Və sənə sülh gətirər.

*Nəqarət:* Bizim Məsih verir bizə
Burada ümid, sevinc orada...

Bizim Məsih verir bizə
Burada ümid, sevinc orada.

2. Uşaq səni çağıran tək,
Məsihin adın çağır,
Onun müqəddəs Kəlamı
Ölümdən xilas edər.

3. Məsihin müqəddəs adı,
Ürəyimə əzizdir!
Yerin zülmətin keçərək,
Biz Onunla bərkiyək.

4. Gəlin Məsihin adıyla
Hər zaman biz diz çökək,
Şanlı, yeni göylərdə biz
Onu Şah elan edək.

## 55

*Fm* *(П.В-427)*

1. Niyə ləngiyirsən bu yolda
Eşidib Rəbb çağırışını: "Gəl!"
Onun bəxş etdiyi lütf payın
Qəbul etmir niyə ürəyin?

*Nəqarət:* İndi tələs, indi tələs!
Sən tələs Məsihin yanına!
İndi tələs, indi tələs!

Sonradan yoxsa çox gec olar.

2. Bax dostum müqəddəs Quzuya:
Sənə görə çəkdi əziyyət,
Qəm kasasın sonadək içdi
Və səni ölümdən qurtardı.

3. Həsr elə Ona həyatını,
Hədsiz xoşbəxt olar günlərin,
Müqəddəs qan yuyar günahı,
Qar kimi ağ olar həyatın.

**56**

*F* *(П.В-427)*

1. İstəyir Allah xeyir-dua versin,
Xoş xəbəri ürəklərə yetirsin.
Geniş et qəlbini, ürəyini aç,
Məsihi qəbul elə!

*Nəqarət:* Məsihi qəbul elə,
Məsihi qəbul elə,
Geniş et qəlbini, ürəyini aç
Məsihi qəbul elə!

2. Bizə görə çarmıxda əzab çəkdi,
Dirilib ölümə O qalib gəldi.
Geniş et qəlbini, ürəyini aç,
Məsihi qəbul elə!

3. Səhrada dolaşıb yol axtarırsan,
Bil, İsa gəlib səni xilas etsin.
Geniş et qəlbini, ürəyini aç,
Məsihi qəbul elə!

4. Xoşbəxtdir özünü İsaya verən;
Kim Onu sevər, Onu o mədh edər.
Geniş et qəlbini, ürəyini aç,
Məsihi qəbul elə!

## 57

*G* *(П.В-442)*

1. Rəbb-Çoban axtarır Öz quzusunu;
Onsuz o məhv olar, itər quzusu.

*Nəqarət:* //Rəbb səni axtarır, Rəbb səni axtarır.
Xilas etmək istəyir.//

2. Günahlı insanı Məsih axtarır.
İtmiş quzuya tək xilasın verir.

3. Tapılan quzuya Çoban sevinir:
Səninlə sevincin bölmək istəyir!

## 58

*Fm* *(П.В-448)*

1. Qapını Məsih döyür,
Astaca döyür.
İncə səs eşidilir,
Ürəyini aç.
Sən Onu məyus etmə,
Sevgisini rədd etmə.
Qəlbinə dəvət elə,
Ürəyini aç.

2. İsa Xilaskarındır,
Asta O döyür.
Qapında qonağındır,
Ürəyini aç.
O gəlir sənə tərəf,
Tez aç, yoxsa O gedər.
Sakitcə O çox gözlər,
Ürəyini aç.

3. Eşit, O hələ döyür,
Asta O döyür.
Qapıdadır, səs gəlir:
Ürəyini aç.
Etibar et və inan
Rəbbin sevgi səsinə.
Qəbul elə qəlbinə,
Ürəyini aç.

4. Müqəddəs Ruh çağırır,
Asta O döyür.
Rəbbin rəhmi gözləyir,
Ürəyini aç.
Günahkar, bilməlisən,
Məhkum olunacaqsan,
Məsihlə gəl barış sən,
Ürəyini aç.

## 59

*Am* *(П.В-455)*

1. Dostum, dərk etdinmi Qanın gücünü,
Pak oldunmu Qanıyla Onun?
Məsihin lütfünü anladınmı sən,
De, dostum, indi sən pakmısan?

*Nəqarət:* Pakmısan? Rəbbin Qanı
Günahdan təmizləyər səni.
Məsihin çarmıxda tökülən Qanı
Qardan ağ eləyər qəlbini.

2. Hər gün yaşayırsan Onun önündə,
Pak oldunmu Qanıyla Onun?
Allahın rəhmini hiss etdinmi sən
De, dostum, indi sən pakmısan?

3. Sən Məsihlə görüşə hazırsanmı?
Pak etdimi o Qan qəlbini?

Onda ruhun tapar müqəddəs yerin,
Pak olarsan Onun Qanıyla!

4. Günahı gəl at, Rəbbə tövbə elə
Müqəddəs Qanıyla təmizlən!
Sənə görə axdı Qan Qolqotada,
Pak ol sən Məsihin Qanıyla!

## 60

*Dm* *(П.В-456)*

1. Quru səhrada tikilib bir quyu,
Büllur təki çox safdır onun suyu.
Və susuz gedir insanlar çöllərə
Vəd olmuş qapıya, uzaq diyara.

2. Çoxu susuzluqla, yorğun ürəklə
Quyunu görmədən, ötüb-keçirlər;
Daha da yaxşısın taparıq deyə
Məhv olur heç nəyi tapmadan onlar.

3. Həmin bu quyuya çoxları gəlir,
Dostlardan soruşur: nə zaman, niyə
Kim qazıb quyunu, haradan gəlib?
Və mübahisədə keçir günləri.

4. Başqaları su mənbəyinə gəlir
Və sevinclə onun suyundan içir;
Və yeni qüvvətlə gedir irəli

Vəd olmuş qapıya, göylər yurduna.

5. Görürsənmi, dostum, Rəbbin quyusun?
Mübahisə etmə daha sən, oyan;
Əgər susamısan iç bu quyudan,
Əbədi həsrətin çəkməzsən suyun.

## 61

*Dm* *(П.В-475)*

1. Bağlı qapıya gecəyarı
Kimsə döyür, kimsə döyür!
Yorğun əllərlə susmuş qapıya
Kimsə döyür, döyür!

*Nəqarət:* Bu Xilaskardır, qapıda durub,
Sakit döyür, asta döyür.
Ürəyini aç – şəfa qətirsin,
Yenə Məsih döyür.

2. Qəlbimdə kədər, sevincim yox,
Kimsə döyür, kimsə döyür!
Evdə sönmüşdür sevinc çırağı,
Kimsə döyür, döyür!

3. İfşa səsindən vicdan sıxılır,
Kimsə döyür, kimsə döyür
Çağırış qəlbimdə heç susmayır,
Kimsə döyür, döyür!

4. Daha da güclənir bu döyüntü,
Kimsə döyür, kimsə döyür!
Günahkar, tövbə et, aç ürəyi,
Kimsə döyür, döyür.

## 62

*Fm* *(П.В-477)*

1. Yalnız Allahda ruhun tapar
Sülh, sevinc,
Rəbbin ardınca getsən əgər,
Tək Onun.
O çoxdan səni dəvət edir,
Xilas, sevinc vermək istəyir –
Tez gəl sən!

2. Burax sən günahlı dünyanı,
Pisliyi,
Orada məhəbbət yoxdur, yalnız
Fanilik.
Sən tez Məsihin yanına gəl,
Qəlbin üçün sülh, sevinci tap
Önündə.

3. İndi səni çağırır Rəbbin,
Sən eşit!
Günahına görə axıdıb
Qanını.
Bəs niyə, dostum, ləngiyirsən,

Allahla olmaq istəmirsən?
Tez tələs!

4. Bəladan, qəzəbdən qoruyar
O, səni
Ata kimi səninlə bölər
Hər şeyi.
Kədər vaxtı səni bərkidər,
Hər gün dua edərsən əgər
Rəbbinə!

## 63

*Em* *(П.В-735)*

1. Sən gəldin dünyaya,
Tezliklə gedərsən.
Xoşbəxt olacaqsan,
Allahı sən tapsan.

*Nəqarət:* Yağış, külək, duman,
Bağlayır gözləri,
Amma gəl ürəyinlə
Sən axtar Məsihi.

2. İnan ki, təkcə O,
Gözünə nur verər.
Ürəyini açıb,
Rəbbini tanıdar.

3. Həyat yoxdur Onsuz,
Mənasız yaşama.
Cavab verib Özü,
Yol göstərir mənə.

4. Kim Məsihi bilməz,
Əziyyət çəkər o.
Sevgisiz yaşayan,
Səadət də tapmaz.

## 64

*Em* *(Ю.И-70)*

1. Neçə səfər, nə qədər yol,
Gəncliyim mənim keçdi.
• Dan şəfəqi, sərin bahar,
• Gəncliyimi apardı.

2. İstərdim mən bomboş keçən,
Günlərimi qaytarım,
• Rəbbi sevim, xidmət edim,
• Ömrü Ona həsr edim!

3. Əziz dostum, inan mənə,
Gəncliyin çox tez keçər,
• Duman kimi o yox olar,
• Cavanlıq sona yetər.

4. İndi tələs, günlərini
Allaha sən həsr elə,
• Axı Məsih bizə görə,
• Verib Özün ölümə.

5. Beləcə tez, yuxu kimi,
İllərin sənin keçər,
• Yaşın dolar, saç ağarar,
• Şənliyin də yox olar.

6. Ey dostum, gəl bəhs etmə sən,
İndi Məsihə inan!
• Ancaq Onda, Onunla sən
Xoşbəxt ola bilərsən.

## 65

*C*
1. Budur, qapı qarşısındasan,
İki yol arasında...
Dostum, acız qəlbinlə sən
Seç, hansı ilə gedərsən.

*Nəqarət:* O dar olan qapıdan
Görünür ensiz bir yol,
Görünür ensiz bir yol,
Orada tikan, bataqlıqlar,
Səni tufanlar gözlər,
Səni tufanlar gözlər.

2. Lakin geniş darvazadan
Geniş yolu görürsən.
Orada saysız insanlar var
Əyləncə, kef çəkirlər.

*Nəqarət:* Mübarizələrdən sonra
• Olur günəş və cənnət.
O biri yolun sonunda var
• Zülmət, gecə, cəhənnəm.

3. Budur, qapı qarşısındasan,
İki yol arasında...
Dostum, aciz qəlbinlə sən
Seç, hansı ilə gedərsən.

## 66

*G*

1. Oğlum, qəlbini mənə ver,
Sən doğma diyarı tərk etdin,
Qəlbin çəkir əzab və çoxdan
Qəmli, qüssəlidir ürəyin.

*Nəqarət:* Oğlum, qəlbini Mənə ver, Mənə ver,
Oğlum, qəlbini Mənə ver.
Oğlum, qəlbini Mənə ver, Mənə ver,
Oğlum, qəlbini Mənə ver.

2. Sən təksən qaranlıq yolda,

Ürək dinclik tapmır heç yerdə.
Eşidə bilməz məğruru da,
Atanın böyük Məhəbbəti.
Qəlbinlə düşməni sevdin,
Lakin sən Atanı tərk etdin.
Günahla onu məyus edib
Günahlı dünyaya qarışdın.

3. Günah dünyasını tərk et,
Öz ürəyini tam Mənə ver.
Allahı, öz sevən Atanı,
Həlim inamla Onu tanı.
Ürəyini Rəbbə sən ver,
Bundan yaxşı günü gözləmə,
Bu gün gəl cavab ver Atana
Keçmiş illərin çağrışına.

## 67

*Dm* *(П.В-430)*

1. İsaya yer qalıbmı,
Kimin Qanıyla dünya yuyulub?
Tezliklə aç ürək qapını,
Rəbb Özü göstərir yolunu.

*Nəqarət:* Göydə izzətli Şaha
Ürəyində yer hazırla.
Ah eşit, ah eşit Onun çağırışını

Və məhəbbətini qəbul et.
Ah eşit, ah eşit Onun çağırışını
Və məhəbbətini qəbul et.

2. Qayğıya və şənliyə
Sənin ürəyin bağlıdır.
Günahından ötrü Öləni
Niyə səndən aralıdır?

3. Həyatını verərsənmi?
Yenə çağırır Məsih səni.
Bəlkə bu sonuncu gündür,
Daha gözləməz səni, O səni.

4. İsaya doğru sən tələs,
Həyatını, qəlbini verməyə.
Xeyirxah səsi susacaq,
Tezliklə O çağırmayacaq.

## Əbədi Diyar

### 68

*Fm* *(П.В-635birinci variant)*

1. O mavi göylər məni cəlb edir,
Bilirəm, oradadır Rəbbim mənim.
Dünyada hər şey izsiz yox olur,
Göylərdə yoxdur nə qəm, nə qüssə.

*Nəqarət:* O mavi göylər! Sən nə gözəlsən!
Rəbb sevgisini əks edirsən!
Olsa qanadım, göyə qalxardım,
Məsihin yanında dincələrdim! Həmişə!

2. Göylər yaranıb Rəbbin sözüylə,
Ay və ulduzlar, bizim dünya...
Yerin və göyün gözəlliyinə,
Heyran oluram qəlbimlə mən.

3. Ey mavi göylər, sən cəlb edirsən
Sürgündə olan əzabkeşi.
Elə bil mənə sən deyirsən:
"Qəm etmə, səni Rəbb qoruyar".

4. Məni Sən cəlb et gözəl Diyara,
Qərib olanda bu dünyada,
Xatırlayım mən: oradadır Rəbbim,
Qəbul edər O tezliklə məni.

## 69

*Em* *(ikinci variant)*

1. O mavi göylər məni cəlb edir,
Bilirəm, oradadır Məsihim mənim.
Dünyada hər şey izsiz yox olur,
Göylərdə yoxdur nə qəm, nə qüssə.

*Nəqarət:* O mavi göylər, sən nə gözəlsən,
Məhəbbəti sən əks edirsən!
Necə qanadlanım, göylərə qalxım,
Məsihin yanında dincəlim mən.

2. Göylər yaranıb Rəbbin sözü ilə,
Ay və ulduzlar, bizim dünya.
Yerin və göyün gözəlliyinə
Heyran oluram mən öz qəlbimlə.

3. O mavi göylər, sən cəlb edirsən
Dar yerdə olan əzab çəkəni.
Mənə: "Dostum, qəm etmə" – deyirsən,
Məsih həmişə qoruyar səni.

4. Məni Sən cəlb et gözəl Diyara,
Qərib olanda bu dünyada
Xatırlayım mən: oradadır Rəbbim,
Qəbul edəcək tezliklə məni.

## 70

*Fm* *(П.В-645)*

1. Göylərdədir evim və doğma Vətənim,
Bütün qəlbimlə mən ora can atıram.
Gözləyərək məni orada Xilaskarım,
Məhəbbətlə yer hazırlayıb yanında.

2. Nə qüssə, nə kədər yoxdur o Ölkədə;
Görəcəyik orada biz müqəddəsləri,
Kim əvvəlcə gedib, dincəlir Diyarda,
Kim əzab çəkib, o qazanıb Cənnəti.

3. Ey əziz Allahım, əbədi yaşayım
Göylərdə, dinclikdə Sənə qulluq edim.
Özün apar məni müqəddəs Şəhərə,
Əbədi sülh və dinclik olan Diyara.

## 71

*Dm*

1. Doğma Diyar sakinliyinə
• Bütün qəlbimlə ucalıram,
• Orada təmiz, müqəddəs sevinc
• Aydın, duru çay tək axır.

*Nəqarət:* Diyarıma mən qəlbən tələsirəm,
Göylərə nəzərimi yönəldərək.
Qızıl ulduzlar sırasında
Çox gözəl xor orada parlayır.

2. Orada kölgəli cənnət bağlarında
• Aləm, çöllər çiçəklənibdir.
• Aramsız mahnı eşidilir
• Qüdrətini alqışlayaq.

3. Orada xoşbəxtlik mənbəyi axır,

- Ətrafda hər şeyi doyudurur
- Tufan yoxdur, yoxdur orada pislik,
- İsa orada Padşahdır.

## 72

*Dm*

1. Uca göylər Diyarında
Rahat və işıqlıdır.
Şüşə təki təmiz olan
Həyat mənbəyi axır.

*Nəqarət:* Ey daimi həyat mənbəyi,
Sənə mən can atıram.
Ey daimi həyat mənbəyi,
Sənə mən can atıram.

2. Gözəl otlaqlarında
Bizi ziyafət gözləyir.
Böyük göylər xoru orada
Şən mahnılar oxuyur.

3. Qəribə, heyrətli mənbə,
Canlı su axını keçir,
Çətinlikdə ümidsən
Ruh Səninlə güclənir.

## 73

*Dm*

1. Necə istərdim uçum göylərə,
Sənə yaxın, ey Rəbbim!
Sənə yalvarıram, güc ver mənə,
Qəlbimi sakit elə.

*Nəqarət:* Sən, Rəbbim, təkcə Sən.
Bəxt verənsən, verənsən
Sən, yalnız, yalnız Sən –
Mənim əziz İsam.

2. Yorğun qəlbimlə mən sıxılıram,
Sevinc mənə çatmayır.
Tək Səndə təsəlli mən tapıram,
Qəlbimsə dinclik tapmır.

3. Qəlbim orada dincəlmək istəyir,
Rəbb iqamətgahında.
Mənim İsam, mənimlə qal hər an,
Əbədiliyə yetir.

# Təsəlliverici və ruhlandırıcı nəğmələr

## 74

*Fm* *(П.В-658)*

1. Müqəddəs Rəbbim,
Yanına gəlirəm.
Bilirəm, Səndədir rahatlıq.

*Nəqarət:* Sənin yanında, dincələrəm mən,
Dincələr ürəyim mənim.

2. Bilirəm Səndədir
Əbədi sevinc,
Əbədi məhəbbət Səndədir.

3. Daha heç bir kəs
Bu sevincimi
Ala bilməz mənim əlimdən

4. Vaxtım çatanda
İnanıram mən,
Apararsan məni yanına.

## 75

*Gm* *(П.В-676)*

1. Sönürmü alov sınaq zamanında,
Tikanlı yolun çətin olsa da,
Sən öz inamını hey uca saxla,
Sarsılmaz ol həqiqət yolunda.

2. Daş ürəkliyə əgər sən rast gəlsən,
Əgər paxıllıq güdərsə səni –
Allah tək qoymaz ömür boyu səni,
Əgər Ona sən itaət etsən.

3. Əgər taleyindən sən razı qalsan,
Geniş çay kimi xoşbəxtlik axsa,
Qapını bağlayıb, dua et qəlbən;
Allah səninlə olar həmişə.

4. Əgər güclüsən – dua et zəif üçün,
Allahı yaddan çıxaran üçün.
Diz çöküb Allaha sən dua elə,
Yaxın-uzaq olan dostların üçün.

5. Duanın gücü təsəlli gətirir,
Duanın gücü qələbə verir;
Qəlbən Allaha yalvarsan sən əgər,
İnan ki, O köməyinə gələr!

## 76

*Em* *(П.В-675)*

1. Gəl qəmlənmə, qəlbim mənim,
Kədərlənmə, lakin sevin.
İnan, başqa həyat gələr,
Unutma, Məsih bizi sevir.

*Nəqarət:* Həyat dəniz tək dalğalanır,
Şiddətli külək, tufan qoparır, qoparır.
Məhəbbətlə dolu bir baxışla
Hər an Xilaskar sənə baxır.

2. O tək Allahına arxalan,
Duanı sakitlikdə oxu.
İtsin ürəyindən həyəcan,
Qəlb sakitliyi tapacaqsan.

3. Gəl qəmlənmə, qəlbim mənim,
Kədərlənmə, lakin sevin.
Göydədir müqəddəs Diyar,
Orada əbədi həyat var.

## 77

*Dm* *(П.В-672)*

1. Həyəcan, qəm və şübhə zamanları
Heç işığı da qarşımda görmürəm.
Qəlbim ağrıyır, iztirab içindədir

Tələsirəm Sənə yalvarışla gələm.

*Nəqarət:* Xoşbəxtəm mən ki, Məsihim vardır.
Xoşbəxtəm mən: O daim mənimlədir.
Onunla yaşamağa peşman deyiləm,
• Dostum mənimlə olanda mən xoşbəxtəm.

2. Gözəl surət mülayim və yumşaq.
İsa Məsih, yaşa daim qəlbimdə
Və ürəyimdə dərin iz buraxaraq
Qoyma yıxılam çətin əzablardan.

3. Hara gedim bu dərdli ürəyimlə,
Kim şərik olub əlini uzadar mənə?
Yalnız Sən hədsiz məhəbbətinlə
Məni bağışlayıb cəlb etdin Özünə.

4. Lakin mənə çox ağır olur hərdən,
Amma Rəbb İsa Məsih tərk etməz məni.
Qəlbdən saf sözünü dinləyirəm yenidən
"Səni atmaram, Mən sevirəm səni".

## 78

*Dm* *(П.В-666)*

1. İç əzabkeş, qəm kasasını,
İç və deyinmə,
Belədir Rəbbin iradəsi
Qəlbinə görə.

*Nəqarət:* Sən ağla insanlardan gizli
Rəbbin önündə,
O yox edər fəlakətləri
Yaşayar qəlbində.

*2-ci Nəqarət:* Rəbb Məsihin dar yolu ilə
Getməyə tələs.
Sənin yaralı ürəyinə
Tək O təsəllidir.

2. Sən çox gücsüzsən bu dünyada,
Dinclik tapmırsan.
İşıqlandırar göy nurunda
Yolunu İsam.

3. Bu dünyəvi qüssə, dərdlərdə
Xilas günündə
Mələklərin səsini o an
Sən eşidərsən.

## 79

*Em*

1. Kimin qəlbində Rəbb sevgisi var,
Onun üçün kədər, əzab heç nədir.
Onun nurunda kim ki yaşayır,
Rəbb pis işlərdən Özü qoruyar.

*Nəqarət:* • Dərd və əzablar çəkmək heç nədir
• Rəbbin məhəbbəti olan yerdə.

• Onu sevən və inananlara
Yalnız hər şeyi yaxşılıq üçün edir,
fayda verir.

2. Dünyanın fani xoşbəxtliyinə
Əziz dostum, nəzər yetirmə sən.
Yalnız Rəbdədir əbədi sevinc,
Həyatını Ona sən həsr elə.

3. Allah dünyanı elə sevdi ki,
Öz Oğlunu ona qurban verdi.
Məgər Onunla birlikdə bizə
O, hər şeyi bəxş edə bilməzmi?

4. Daha yaxşı günləri Rəbb verər,
Yayındırar tutqun buludları.
Kədəri yaxşılığa çevirər,
Yağışdan sonra günəş parlayar.

## 80

*Gm*
1. Dostum, qəlbin sənin yorulanda,
Məsihə yönəl həmin o anda.
Sönmüş həyatın inamla dolar,
Məsihin sülhü səndə yaşayar.

*Nəqarət:* İsa Rəbdir! Axtarır səni.
Onda olur həyatın səsi.

Ey dostum, aç qəlbini,
• Məsihin sülhü səndə yaşasın.

2. Dostum, qəlbin sənin yorulanda
Çarmıxa yönəl həmin o anda.
Ucalt Xilaskarını hər zaman,
O kömək edər sənə, sən inan.

3. Dostum, qəlbin sənin yorulanda
Seç həqiqəti həmin o anda.
Onda görərsən Xilaskarını,
Uzadar sənə kömək əlini

## 81

*Gm* *(Ю.И-249)*

1. Canım əzablar içində üzülsə,
Haldan düşsə də ruhum,
İnanıram, həyat iztirabında
Sənsən ən əziz Dostum.

*Nəqarət:* Xilaskarım, hər şeyi Sən bilirsən,
Qəlbimdəki kədəri...
Müəllimim, ümidim təkcə Sənsən,
Uzat kömək əlini.

2. Əzablardan əgər qəlbin yorulsa,
Deyirsən: “Əzabkeşəm”.
“İradəmsiz heç bir şey ola bilməz,

Qorxma və möhkəm ol sən".

3. Dostların vəfasız olsa da hərdən
Deyirsən: "Kədərlənmə,
Sadiq Dostunam, səninlə olacam,
Yolunda qoruyacam".

## 82

*Hm* *(Ю.И-243)*

1. Sevginin ağır itkisi zamanı,
Kədərli məğlubiyyət anı
• Sən ancaq Rəbbin qiymətli Qanında,
• Dostum, təsəlli tapacaqsan.

2. Qəlbin yarasın O izsiz sağaldır,
Göz yaşları gözlərdən silir.
• Zəifik, lakin qorxmuruq tufandan,
• Qüdrətli Rəbb kömək edəndə.

3. Bəla gələndə bu mübarizədə
Gücsüz olub qalxa bilməzsən,
• Bax Müqəddəs Əzabkeşin izinə
• Və duanın gücünü yada sal.

# Vəftiz nəğmələri

## 83

*Gm*

1. Bütün qəlbimlə mən inanıram
Mənə görə əzab çəkdin, İsam.
Heyf ki, günahlarla yaşayırdım
Səni tanımazdan əvvəl.
Lütfünlə ölümdən və günahımdan
Məni sevgiylə Sən xilas etdin.
Ruhun gücü ilə yeniləşdim,
Mən Allahın övladıyam.

*Nəqarət:* Rəbb, Sənin əmrinlə mən vəftiz oluram
Və həyatımı yalnız Sənə həsr edirəm,
həsr edirəm.

2. Ata, Oğul və Müqəddəs Ruhum,
Sənin naminə mən vəftiz oldum.
Bütün qəlbdən Sənə dua edirəm:
Rəbbim, əbədi mənimlə ol.
Hər şeydə Sənə oxşamaq istərdim,
Mənim yeganə Rəbb Xilaskarım.
Təzə həyatı indidən başlayam
Və əbədi Səninlə olam.

# Məsihin əzabı və ölümü

## 84

*Gm*

1. Qoyub Sən göyləri, bu dünyaya gəldin,
Mənə görə Sən hər əzaba dözdün
• Alçaldın, döyüldün, çarmıxda qan axıtdın,
• Məni əbədi xilas etdin.

2. Ey dostum, sən də gəl, qorxub durma kənarda
Məsih sənin üçün də ölüb çarmıxda
• Ürəyini aç Ona, günahdan sən təmizlən,
• Rəbbin işığı olsun səndə.

3. Tapmazsan başqa bir yolu bu həyatda,
Məsihdədir həyat, ümid, məhəbbət.
• Qəlbə sakitlik verir, bizə haqqı bildirir,
• Onun Kəlamı həyat bəxş edir.

4. Biz Məsihi gözləyirik ağ paltarda,
Yer hazırlayıb bizə Öz yanında.
• Günahkar, sən fikirləş, həqiqət yolun tanı,
• Rəbb təmizləsin ürəyini.

## 85

*Hm* (П.Г-293)

1. İsa, kim Səni tanıyar burada,
Bizim kədərli bu dünyamızda.
Gəldin bütövlüklə oldun qurban,
Bilsin yaxın və uzaqda olan.

*Nəqarət:* İsa – bu ad mənə əzizdir!
İsa – bu ad incə, zərifdir!
İsa – Sən istəmirsən bir insan
Sənsiz bu dünyada qalsın.

2. Dostum, sən nəzər sal Qolqotaya,
Dayan, bir də bax, üz çevirmə.
Bizim xoşbəxtliyimiz naminə
Axır qan sənə və mənə görə.

3. Məsih, pak elə hər zaman bizi,
Doldur sevincinlə qəlbimizi
Və kim eşitsə bizi ilk dəfə
Bağrına bas, müqəddəs əlinlə.

## 86

*Am* (Ю.И-51)

1. Qolqota, Qolqota, Qolqota
Ağlayıb baxıram Sənə.
Çarmıxdakı Rəbb İsama,
Ağrımı aldın, qorxumu qovdun,

Özünsə ölümə getdin.

*Nəqarət:* Səni saxlayan orada mismar deyil,
O əzabları verən insan deyil,
Nə mismardır, nə insan, tək günah
O gündən illər keçsə də,
Rəbb Məsihim.

2. Görürəm Səni çarmıxda
Əzabda, tikanlı tacda.
Deşib mismarlar ayaq, əlini.
O an xilas etdin məni.

3. Görürəm tez-tez o günü,
Qolqotada qan izini,
Diz çökərək mən tapdım mərhəmət:
Məsih bağışladı məni.
Qolqota, Qolqota, Qolqota…

## Nikah nəğmələri

### 87

*A* *(Ю.И-265)*

1. Nikah yadigar və əziz olur,
O, bahar təki bir anda keçir
Cığır dağa çıxsa da əgər,
Sevənlərə sədd qorxunc deyildir,

Cığır dağa çıxsa da əgər,
Sevənlərə sədd qorxunc deyildir.

2. Xoşbəxtdir o iki nəfər, əgər
Allahın Oğlu onları birləşdirər.
• Bundan böyük nemət ola bilməz
• Səyyah yer üzünü dolaşsa da.

3. Məsihsiz birlik möhkəm deyildir,
Dünyada dostluq teli qırılır.
• Sevinc və məhəbbət qəmdə sönür,
• Keçənləri qaytarmaq olmayır.

4. Hətta kədərlə də sevinc olar,
Əgər nikaha Rəbb xeyir-dua versə.
• Allahın tükənməz məhəbbəti
• Günəş tək parlasın üstünüzdə.

## 88

*E* *(Ю.И-263)*

1. Tanrı Özü izin verib:
İki qəlblər bir olsun.
Bu Allahın qanunu
İnsanlara bəxş edilib.

*Nəqarət:* • Toyunuz mübarək olsun!
• Həyatınız belə keçsin:
• Aranızda kədər, sevinc,

- Tam yarı bölünə bilsin.

2. Qarşınızda yol yeni,
   Rəblə olun daimi.
   Və O, böyük məhəbbəti ilə
   Bəzəsin günlərinizi.

**89**

*Eb (Ю.И-268)*

1. Rəbb xeyir-dua verərək,
   Evlənənləri sevindirir,
   Məhəbbətlə dolduraraq,
   Ürəklərin birləşdir.
   Qoy ötüb-keçən həyatda
   İşıq saçılsın onlara;
   Sənin xeyirxah nurun
   Onlarda bol-bol olsun.

2. Hər zaman məhəbbətinlə
   İmanlarını bərkit,
   Ayrılmaz xidmətlərində
   Onları Sən birləşdir.
   Qoy sevinc və kədərləri
   Sənlə birlikdə bölsünlər.
   Qoruyaraq yol göstər
   Əbədi Diyarına.

# Məsihçi ailəsi

## 90

*E (П.В-564)*

1. İstərdim mən və ailəm
Sənə, Məsih, qulluq edəm;
Qüvvət ver mənim özümə,
İtaətkar qulun olam.

2. Kömək elə əməlimdə
Olum hər kəsə nümunə,
Kimlərlə yaşamalıyam
Və kimləri sevməliyəm!

3. Bir fikir vardır zehnimdə,
Qoy mən və mənim ailəm
Sənin xilas sözlərinə
Yüksəldək məbəd qəlblərdə.

4. Qurban tək, verirəm Sənə
Özümü və ailəmi.
Rəbb, eşit yalvarışımı,
Bolluca ver Öz lütfünü.

## 91

*Dm* *(УЖ-6)*

1. Allah yaradıb gülləri,
   Onları O qoruyur,
 • Quşcuğazlara sevgi ilə
 • Vaxtında yemək verir.

2. Mavi göylər parıldayır
   Başımın üzərində
 • Həmişə o xatırladır:
 • Mənimlədir Yaradan!

3. Mənə şəndir və çox xoşdur
   Çöldə qaçıb oynamaq.
 • Rəbb uşaqları əzizləyir
 • Gəlin Ona həmd edək!

## 92

*Fm* *(УЖ-7)*

1. Rəbb İsa Məsihi
   İzzətləndirim.
   Onun məhəbbətin
   Daim yüksəldim.

*Nəqarət:* Yalnız İsayla
Uzaq bəladan,
Yalnız İsayla
Xoşbəxtəm hər an!

2. O həmişə mənim
Yanımda gedir,
Yolum olsa çətin,
Məni aparır.

3. Böyüklər, uşaqlar,
Rəbb sizi sevir,
Bütün insanlara
Sevinc bəxş edir.

## 93

*Am* *(УЖ-20)*

1. Səhər çağı tezdən,
Göy açılan zaman.
Rəbbimin önündə
Diz çökərəm mən.
Təmiz ürəyimlə
Əbədi Məsihlə
Olacağam ünsiyyətdə,
Sanki atamla.

2. Sübh açılan zaman
Rəbb övladı təki,
Tapıram fərəhi
Ürəyim üçün.
Yoxdur gözəllikdə
Quş səsinə bənzər.
Onlarla mən mədh edirəm
Şahlar Şahını.

3. O, təsəlli verir
Qəlbi xilas edir.
Bütün insanlara
O, həyat verir.
Mən heyran oluram
Müdrik yaranışa,
Qəlbim oxuyur İsaya,
Sevinclə mahnı.

## 94

*E* *(У.Ж-24)*

1. Yerusəlim dağında
Oxuyurlar uşaqlar.
Uca səslə İsaya
İzzət olsun Məsihə.

*Nəqarət:* Oxusun,
Qoy gənc uşaq xoru!
Oxusun,
Qoy gənc uşaq xoru!
Xilaskara qoy uşaqlar
"Həmd olsun" oxusunlar.

2. Məsihi biz sevirik,
Yolu ilə gedirik.
Kəlamıyla yaşayaq,
Rəbbimizə həmd edək.

3. Gəlin, əziz uşaqlar,
Uca səslə oxuyaq,
Yayılsın uzaqlara
Müjdə Məsih haqqında.

**95**

*С (У.Ж-5)*

1. Allah sovqatlarını
Dəyərləndiririrəm!
Bütün bunlara görə
Təşəkkür edirəm.
Bütün bunlara görə
Təşəkkür edirəm.

2. Ürək sevinclə dolur –
Şən nəğmə səslənir!
• Rəbbin rəhmi görünür,
• Parlaq şüalarda.

3. Allahım! Öyrət məni
Mərhəmətli olum.
• İncə səsimlə Səni
• Əbədi mədh edim.

## 96

*G* *(У.Ж-10)*

1. Sakit səhər şəfəqiylə
   Bütün məxluq, bütün canlı
   Oyanıb onlar oxuyur:
   "Şərəf Sənə, Ulu Tanrı!"

2. Səhər gözümü açıram,
   Mən duaya tələsirəm,
   Həmd olsun Sənə, deyirəm,
   Xeyir-dua diləyirəm.

3. Budur axşam yaxınlaşır,
   Quş səsləri sakitləşir.
   Qarşında bütün qəlbimlə
   Şükür edərək diz çökürəm.

## 97

*E* *(У.Ж-1)*

1. Uşaq qəlbimizlə
   Rəbbi mədh edək.
   • Göylərdə olmağı
   • Biz arzulayaq.

2. Rəbb mavi göylərə
   Bizi aparar,
   • Sadiq olanları
   • Orada toplayar.

3. Göylərdə ürəkdən
Rəbbə oxuyaq,
• Sonsuz məhəbbətlə
• Daim oxuyaq.

## 98

*G* *(У.Ж-3)*

1. Balaca uşağıq
Rəbbə oxuyaq,
Həyatda çox xoşdur,
Rəblə yaşamaq.

*Nəqarət:* Xoşdur Məsihimlə,
Xoşdur Onunla!
Əziz Məsihimlə
Xoşdur Rəbbimlə!

2. Gəlin nə inciyək,
Nə də incidək.
Rəbbə oxşamağa
Gəlin çalışaq.

3. Ata-anamızı
Eşidək hər an.
Yaddan çıxarmayaq
Bunu heç zaman!

## 99

*Cm*

1. Minnətdarıq, Rəbbim!
Bol çörəyə görə,
Bu qayğına görə,
Onu bizə Sən göndərdin.

2. Minnətdarıq, Rəbbim!
Şirin qarpız üçün,
Dadlı yemiş üçün,
Rəbb, onları Sən yaratdın.

3. Minnətdarıq, Rəbbim!
Alma, armud üçün,
Çox xoşlayıram,
Onları Sən yetişdirdin.

4. Minnətdarıq, Rəbbim!
Paxlaya görə,
Noxuda görə,
Kök, soğan, sarımsağa görə.

5. Minnətdarıq, Rəbbim!
Doğma Diyara
Yolun aparar,
Qəlbimiz sevinclə dolar.

## 100

*C* *(У.Ж-11)*

1. İsaya həmd edək!
Həyat mənbəyidir.
Qəm-qüssə, kədərdə
Bizə təsəllidir.

*Nəqarət:* Ürək sevinciylə
Oxuyaq "Hosanna!"
Daim oxuyarıq
Əbədi Diyarda.

2. İsaya həmd edək!
Öz məhəbbəti ilə,
Bizə yol göstərib
Əbədi Evinə.

3. İsaya həmd edək!
O bizi eşidir.
İsanın adından,
Yüksək bir ad yoxdur.

## 101

*C* *(У.Ж-31)*

1. Balaca çiçək
Çəməndə bitir.
Qız onu dərir,
Anaya verir.

*Nəqarət:* • Yaradıb Rəbb hər çiçəyi,
• O sevir səni və məni.

2. Qızım sevinir
Balaca gülə,
Yaradanı kimdir
Ana söyləyir:

3. “Bütün gül-çiçəyi
Allah yaradıb,
Gözəl rəngləyərək,
İnsana verib”.

4. Balaca qəlblərik,
Biz də öyrənək,
Rəbbin qüdrətini
Ətrafda görək.

5. Gəlin, ey uşaqlar,
Oxşayaq gülə,
Rəbbə həmd edərək,
Onda böyüyək.

## 102

*F* *(У.Ж-54)*

1. Rəbb körpə sərçəni sevir,
Ölümdən qoruyur.
Rəbbim quşları sevirsə,
Məni də O sevir.

*Nəqarət:* Həqiqətən, məni sevir!
Bilirəm, çox sevir!
Körpə uşaqları sevir,
Məni də O sevir.

2. Çöldə çay yanında bitən
Zanbağı O sevir
Rəbbim gülləri sevirsə,
Məni də O sevir.

3. Göydən Rəbb nurunu saçdı,
Quşları yaratdı.
Unutmayır uşaqları,
Sevir Rəbbim məni.

## 103

*A* *(У.Ж-56)*

1. Quzusuyam Məsihin!
Sevinclə dolur qəlbim.
Çobanım məni qoruyur,
Onunla yaşamaq xoşdur!
• Məhəbbətlə aparır
• Və adımla çağırır.

2. Ehtiyacım olanda,
Gedirəm mən yanına.
Ac olsam – yemək yetirir,
Susuz olanda – su verir,

• Qorxudsa məni düşmən –
• Qoruyar gözəl Çoban.

3. Sevinclə oxuyuram,
   Mən Məsihlə xoşbəxtəm.
   Bir arzu ilə yaşayıram
   Rəbbə hər an can atıram.
• Məsih məni aparar,
• İşıqlı Diyarına.

## 104

*D* *(У.Ж-110)*

1. İstərdim Sənin bağında mən
   Bəhər verən meynən olam.
   İstərdim Səni sevindirəm,
   Sənin hökmünü qoruyam.
   İstərdim Səni sevindirəm,
   Sənin hökmünü qoruyam.

2. Mən dəyərsiz və miskinəm,
   Lakin Sən məni saxlayırsan.
• Balaca uşaq olsam da mən
• Hər bəladan Sən qoruyursan.

3. İzin ver gül tək çiçəklənim.
   Mən Səni əks edə bilim,
• Ruhun bəhəri olsun məndə,
• Yetişsin göy sükutunda.

4. Balaca uşaq olsam da mən,
Allahım, məni aparırsan;
• İstərdim Sənin sözünə baxım,
• İstərdim Səni sevindirim.

5. Ardınca sevinclə gedərəm,
Ömrümün baharın mən taparam.
• Aparır Xilaskarım, bilirəm,
• İşıqlı cənnət göylərinə.

## 105

*F* *(У.Ж-77)*

1. Pis əməllər etmə,
Acı söz danışma,
Biz Məsihin övladıyıq
Ondan ibrət alırıq.

*Nəqarət:* İsa xeyirxah, həlim,
Müqəddəs və günahsız.
Onun kimi müqəddəs
Olmalıyıq biz.

2. Pis ruhlar dolaşır
Ətrafımızda.
Bizi sınamağa çəkir
Zərər yetirmək ilə.

3. Pis ruhu dinləmə,
Əzablardan qorxma,
Pis əməllər etmə,
Xeyirxahlığa çalış.

## 106

*A*

1. Xilas olmuş ailəmlə
Doğma diyarda
Mən təzələnmiş qəlbimlə
Mahnı oxuyuram:

*Nəqarət:* Əbədi mərhəmətdən,
Müqəddəs həyatdan,
• Yeni, səmimi
• Məsihin birliyindən.

2. Qoy mahnının sözləri
Sevinc, şən olsun.
Hər yerdə qoy uşaqlar
Onu oxusun.

3. Heyrətli Məsihimdən,
Mənim Dostumdan
Eşitsin qoy hər insan
Sevinc nəğməsin.

## 107

*Cm* *(У.Ж-86)*

1. Lap hündür dağlarla
Çobanım gedir,
O, bir dar cığırla
Sürünü aparır.

*Nəqarət:* Mən bir balaca quzuyam,
Ardınca getdim.
Dar bir cığırla
Yerusəlimə çatım.

2. Hər bir quzusunu
Qoruyur Çoban;
Saf, təmiz suyunu
Verir bulaqlardan.

3. Daim məhəbbətlə
O, məni sevir,
Hər bir çətinlikdə
Evə yol göstərir.

## 108

*Gm* *(У.Ж-109)*

1. Zəhərli göbələk,
Papağın nə qəşəng!
• Özün zəhərlisən,
• Heç kimə demirsən.

2. Görünüş saxtadır,
Bəzəyin cəlb edir,
• Yemək olmaz səni,
• Öldürərsən məni.

3. Olur bizdə hərdən
Çoxlu bər-bəzəklər:
• Sözümüz təmkinli,
• Qəlbimiz zəhərli.

4. Qorunun, ey dostlar,
Pis sözdən, yaltaqdan!
• Azdıran insanı
• Alacaq cəzanı.

## 109

*F* *(УЖ-78)*

1. Əllər Rəbb üçün işləyər,
Ayaqlar Onu izlər,
Gözlər gözəl Rəbbi görər,
Ağız Onu təriflər,
• Qulaqlar – Sözün eşidər,
• Ürək – Ona inanar.
• Hər şeyi Rəbbə verirəm,
• Tam Ona məxsusam mən.

## 110

*Gm* *(У.Ж-99)*

1. İsaya mən həsr edirəm
Uşaqlıq illərimi.
O sevir məni, bilirəm,
Heç vaxt tərk etməz məni.
Heç vaxt tərk etməz məni.

2. Gecə-gündüz yanımdadır,
İsa məni qoruyar.
Ömrümsə başa çatanda
• Rəbb aparar yanına.

3. Rəbbim, yalvarıram Sənə,
Qüssələrdə, sınaqda,
Kömək elə həyatımda
Hər an bənzəyim Sənə.

## 111

*F* *(У.Ж-75)*

1. Biz ümid və cəsarətimizi
Kaş sonadək saxlayaq,
Ürəyimizlə, canfəşanlıqla
Məsih üçün çalışaq.

*Nəqarət:* Bir-bir daşı daş üstünə yığaq,
Günbəgün tələsmədən.
Rəbbin sözü ilə ruhani evlər

Qururuq özümüzdən.

2. Bu evi tam düzgün tikmək üçün,
Müqəddəs Yazımız var,
Allahın hökmü – sanki qanundur
Və bir vəddir bizim üçün.

3. Biz ümid və cəsarətimizi
Kaş sonadək saxlayaq,
Məsihin adını bu evdə biz
Həmişə qoy ucaldaq.

## 112

*Em* *(П.В-798)*

1. Rəbb, yalvarıram Sənə,
Eşit məni göylərdən,
Üzünü mənə döndər,
Yağdır mərhəmətindən.

*Nəqarət:* Yolumuza sülh göndər,
Necə gedək, Sən göstər.
Bu günahlı dünyada,
Qalib gələk günaha.

2. Doldur qəlbimizi Sən
Öz lütf məhəbbətindən.
Bizə göndər rahatlıq,
Axı övladlarınıq.

3. Yetirdik duamızı
Yerdə eşit Sən bizi.
İnanırıq gün gələr
Rəbb yanına aparar.

## 113

C

1. Mərhəmətli qarışqa
Çoxlu dostlar qazandı.
İndi onun yanında
Artıq dostları vardır.

2. Bütün gün o çalışır,
Tənbəlliyi sevməyir.
O, işlək qarışqadır
Həm özü, həm dost üçün.

3. Lazımdır ki, uşaqlar
Yaxşı işlər göstərsin
Və dostlarını sevsin
Müdrik qarışqa təki.

4. Rəbb, övladınıq Sənin,
Bu qarışqalar təki.
Öyrət əməyi sevək,
Dostların qədrin bilək.

## 114

*D* *(У.Ж-148)*

1. Göy yüksəkliyində
   Çox ulduz yanır,
   • Lakin onlardan biri
   • Şən parlayır.

2. O ulduz Körpənin,
   Şahlar Şahının.
   • Onu anası özü
   • Axura qoyub.

3. Ulduz dalınca gedir
   Şərqli müdriklər,
   • Məhəbbətlə aparır
   • Rəbbə hədiyyə.

4. Uşaqlar, tələsin
   Rəbbə inanaq
   • Və qəlbimizi Ona
   • Sevinclə verək.

## 115

*D* *(У.Ж-157)*

1. Sevinc göylərdə, sülh var qəlblərdə –
   Bizə Xilaskar doğuldu yerdə!
   • Onu göndərdi, çünki vəd etdi,
   • İnsanlar xilas olsunlar deyə.

2. Rəbb istəyir ki, doğulasan sən
Yeni həyata, ey əziz dostum.
• Kim Rəblə yaşar, o xoşbəxt olar,
• Əbədiliyə açılar yolu.

3. Qoy Məsih Özü dərdli dünyada
Həyat yolunu göyə yönəltsin.
• Xilaskar kimi doğuldu yerdə,
• Bu gün səni də O xilas etsin

## 116

*G* *(У.Ж-192)*

1. Səmanın yüksəkliyinə baxıram,
Allahın gözəlliyini tapıram.
Görürəm ki, həyat oyanır,
Sanki təbiət şadlanır.

*Nəqarət:* Dirilmə, bu şənlik günüdür,
Ağaclar yarpağa bürünür...
Yada düşürlər möcüzələr:
Dirilmışdir bizim Xilaskar!

2. Günəş şüası parlaq oyanır,
Quşlar göylərdə nəğmə oxuyur,
Hamı Yaradana həmd edir,
Bizim də qəlbimiz sevinir.

3. Böyüklərlə biz himn oxuyaq,

Dirilmiş Məsihi yada salaq,
Sevimli avazlar ucalsın:
Sənə, Rəbbim, əbədi eşq olsun!

## 117

*Eb*

1. İndi kiçik uşaqlar
Oxuyur İsa haqda.
• Dirilib Xilaskarımız,
• Bizim sevimli İsamız.

2. Bizim Rəbb-Çobanımız
Sevir quzularını.
• Otlaqlara aparır,
• Özü qabaqda gedir.

3. Gəlin ardınca gedək
Rəbbimizlə birlikdə.
• Bir ailə təki gedək,
• Allaha şükür edək.

## 118

*E*

1. Möcüzədir bu!
Möcüzədir bu!
Məsih dirilib!
Məsih dirilib!

Sığırçın şən oxuyur,
İsa Məsih dirilib!
İsa Məsih dirilib!
Onu həmd edirik biz,
Onu həmd edirik biz.

2. • Möcüzədir bu!
• Məsih dirilib!
Gəlin birgə oxuyaq,
Onu şöhrətləndirək!
İsa Məsih dirilib!
• Ölümə qalib gəlib!

## 119

*B* *(У.Ж-193)*

1. Sübh çağı lap tezdən
İsa dirildi.
• Mədh edin, uşaqlar,
• Göylər Rəbbini!

2. Qəbirdə Rəbb yoxdur,
Yox olub möhür.
• Quşlar cəh-cəh vurur,
• Necə susaq biz?

3. Ölümü yox edən
Sevinc gətirdi.
• Rəbbə şükür edək,
• Məsih dirildi!

## 120

*G* *(УЖ-180)*

1. Dirilmə günü –
   Bu xoş xəbərdir.
   Sülh dünyaya!
   Gözəl Xilaskar –
   Rəbb dirildi!

2. Rəbb qalib gəldi,
   Ölüm çəkildi, –
   Məbəd yaşar!
   Mədh edin Rəbbi,
   Bütün xalqlar!

3. Səmadan gələn
   Mahnı səsinə,
   Qoşulun siz!
   Rəbbə ucalsın,
   Mədh mahnımız!

## 121

*F*

1. Günəş tək parlaqdır ürək sevincimiz:
   Dirilib Allah oğlu Xilaskarımız.

*Nəqarət:* • Buna görə biz də şən nəğmə qoşuruq,
• Ey günahlı insan, indi sən də oyan.

2. Əvvəlki sevincsiz, günahlı həyatdan
Oyan ki, ümid və sülhdə yaşayasan.

3. İnamsızlığın dəhşət boranı yatar.
Dostlar, bir-birinizi siz salamlayın.

## Yeni il

### 122

*Dm* *(П.В-707)*

1. Sakit bayram vaxtı...
İl keçdi, qurtardı...
Yeni il, yeni il
Bizə Rəbb bəxş etdi.

2. İl keçdi, dost, sevin,
Rəblə görüş yaxın.
Dost, oxu! Dost, oxu!
Əbədi dinclik yaxın.

3. Bizə nə bəxş edir
Qarşılanan bu il?
Həyəcan, ya ölüm,
Yoxsa sevinc və sülh?

4. Görmürük biz hələ
Nə gəlir qarşıda,

Hər an O qəlbdədir,
Bizi göyə aparır.

5. Duada səslənir:
"Sənə faydalıdır!
Dostum, heç qorxma sən,
Ayıq ol, dua et sən".

## 123

*Em* *(П.В-711)*

1. Ömrümüz qısadır, quş uçuşu kimi,
Qayıqdan da iti gedir o irəli.

2. Bizim həyatımız elə bil kölgədir
Və günəş batan tək – o birdən yox olur.

3. Çöl çiçəyi kimi sübh tezdən açılır,
Axşam bürküsündə saralır və solur.

4. Həyat elə bil ki, ötüb-keçən səsdir,
Qəfil qorxu kimi – çox qısadır ömür.

5. Həyat sonun, insan, heç düşünməyirsən:
Qarşıda var ölüm və qısadır ömrün.

6. Hələ ki gec deyil, sən Məsihi axtar,
Onda sənin qəlbin təsəlli, sülh tapar.

# Pasxa – Məsihin dirilməsi

## 124

*E* *(П.В-721)*

1. Bilirəm, Xilaskarım sağdır
Və O, yaxınlıqda durub,
Mənim Rəbbim, Külli-İxtiyarım,
İnsan taleyi Ondadır.

*Nəqarət:* Bilirəm, yaşayır Dirilən,
Onun önündə əyilər düşmən,
Hər bir insana həyat verər,
Əlindədir hər ixtiyar.

2. Bilirəm, vədində möhkəmdir,
Dediyinə əməl edir,
Heç qorxutmaz məni əzablar,
Göylərə yol Məsih açar.

3. Bilirəm, harada gecə olmayır,
Orada O, yer hazırlayır.
İndi qanadı altındayam.
Göydə Onunla olaram.

## 125

*D*

1. Azad etdin bu gün məni
Sən günahlı həyatımdan.
Rəbbim, mənə həyat verdin
O əbədi diyarından.

*Nəqarət:* Görürəm gözəl Vətəni,
Hədiyyə veribdir mənə,
Məsihin dirilməyi
Cənnəti açmışdır mənə...

2. Rəbb yaxın olsa bizə,
İnan, ümid verər bizə.
Həyatın inamlı olar,
Gələcəyin nurla dolar.

# Müqəddəs Ruhdan

## 126

*D* *(П.В-739)*

1. İsanın gözəlliyi, məndə parla!
Təmizlik və məhəbbət görünsün qəlbimdə,
• Məhəbbət Ruhu, alovu məndə oyat,
• İsanın surətini məndə yarat

2. İsanın gözəlliyi görünsün məndə,

Onun paklığı, məhəbbəti həmişə.
• Allah Ruhu, gəl, məni dəyişdir, yenilə
• İsanın gözəlliyi görünsün qəlbimdə.

3. Rəbbin Müqəddəs Ruhu, məndə yaşa,
Sənin lütfün, məskənin məndə ola.
• Qoy mən bar verim, Allahı da sevim,
• Şam yeməyini də Səninlə bölüm.

4. Qoy qəlbim şadlıqdan həmd himni oxusun,
Məsihi vəsf edərək Onunla olsun,
Qoy Məsihin adı dildən-dilə düşsün,
Qəlbim mədh himnini həmişə oxusun.

## Biçin nəğmələri

### 127

*D* *(П.В-749)*

1. Nə əkmisən, dostum, yazda sən?
Dənli bitkilər toxumunumu?
Qızıl sünbül dalğaları ilə
Sənin tarlan bürünüb indi.

*Nəqarət:* Həmişə xeyirli toxumu səp,
Biçəcəksən, nəyi ki əkmisən.
Biçin günü gələcək, gecikməyəcək,
Onda əkdiyini biçəcəksən.

2. Yaxınlıqdadır qorxunc tarla!
Düşmənmi kin əkib oralarda?
Tikanlı, təhlükəli otlarla
O necə də sıx bitmişdir orada.
Həyat tarlasında nə əkdin?
Məhəbbəti, yoxsa düşmənçiliyi?
Əkdiyin bitər dən və yetişər
Əbədilikdə O, haqqını verər.

3. Əkək Müəllim Kəlamını,
Onun dahi məhəbbət sözlərini,
Gəlin söyləyək Onun qurbanından,
Axıdılmış o Quzunun qanından.
Gün gələr, göylərdə görərik
Xoşbəxt və xilas olmuş insanları.
Başa çatacaq xilas biçini
Ey dostum, səp, yorulmadan səp!

## 128

*Em*

1. Biçin vaxtı çatdı,
Tarlada bol məhsul yetişibdir.
Rəbb Allah gözləyir,
Kim biçini yığışdıracaq?
Dostum, tez ol, tələs,
Biçini yığ, hələ ki vaxt vardır,
Sən tələs, çünki vaxt
Heç səni gözləməyəcəkdir.

2. Çıx tezdən, lap erkən,
Biçin vaxtı yığ arpa-buğdanı.
Qoy sənin anbarın
Bol məhsul ilə olsun dolu.
Çünki vaxt olacaq,
Sahibkara cavab verəcəksən.
Nə yığmısan, dostum,
Anbarlara nə toplamısan?

3. Dostum, ətrafa bax,
Rəbbi tanımayanlar nə çoxdur.
Allahın Kəlamın
Sən çalış onlara da çatdır.
Vaxt gələr, qəlbləri
Müqəddəs Ruh ilə təmizlənər.
Onlar tövbə edər,
Allaha həmişə həmd edər.

## Məsihin ikinci gəlişi

### 129

*Em* *(Ю.И-296)*

1. İsanın gəlişini biz gözləyirik,
Son zaman günlərini biz yaşayırıq,
Tövbəyə insanları dəvət edirik,
İnamla əbədiliyə gedirik.
Ətrafda bəşəriyyət məhv olur,

Dünyada düşmənçilik lap çoxalır,
Qəlbim həyəcanla soruşur:
"Nə vaxt, nə vaxt, Müəllim, nə vaxt?"

*Nəqarət:* Nə vaxt? Nə vaxt? Rəbbim, de bizə,
nə vaxt?
Nə vaxt yeni bədəndə Səni eşidib,
görə bilərik?
Günahlı, səs-küydən uzaq. İsa, de bizə,
nə vaxt?
Nə vaxt? Nə vaxt? Rəbbim, de mənə,
nə vaxt?
Nə vaxt yeni bədəndə Səni eşidib
görə bilərəm?
Günahlı, səs-küydən uzaq. İsa, de mənə,
nə vaxt?

2. Dünya imtahanları içindəyik biz,
Yalnız Sənin köməyin lazımdır bizə.
Yenə də qəlbimizdə vardır bir sual:
"De, nə vaxt, Xilaskarımız, de, nə vaxt?"
İllərlə bərkiyir ümidimiz,
Çətin olsa da əgər yollarımız,
Heç dəyişilməzdir arzumuz:
Xoşbəxt göylərə daxil olmaq.

# 130

*Dm*

1. İstəməzdim, Rəbbim mənim,
Göylərdən gələsən indi.
Xalqın hələ hazır deyil,
Çox insan xilas tapmayıb.
Ləngiyirsən, doğrudurmu?
Nikah toyuna çağırışın
Hələ çox yerə çatmayıb,
Uzaq dostum çağırılmayıb.

*Nəqarət:* Ruhum mənim kədərlidir,
Gözləməksə çox çətindir.
Ürəyimdən fəryad gəlir
Ah, mənim Rəbbim, tez gəl Sən.

2. İstəməzdim, Rəbbim mənim,
Göylərdən gələsən indi;
Başlanan iş qurtarmayıb,
Gedən qardaş qayıtmayıb,
Yumşalmayıb qəlblər hələ
Ruhunun məlhəmi ilə.
Səni yerin oğulları
Tanımır Rəbb kimi hələ.

3. İstəməzdim, Rəbbim mənim,
Göylərdən gələsən indi;
Uzağam mən məqsədimdən,

Çatmamışam istəyimə.
Atmaq istərdim mən indi
Yerdəki ağır yükümü.
Qalxıb uçardım mən göyə
Parlaq olan Məskənimə.

## Yığıncağın sonunda

### 131

*E* *(П.В-783)*

1. Həmd olsun böyük, lütfkar Allaha! Rəbbin sevgisi bizi etdi xilas.

*Nəqarət:* Halleluya Rəbb Allaha!
Halleluya əbədi!
Halleluya Rəbb Allaha!
O bizdədir. Amin!

2. Sənə əbədi həmd olsun, Xilaskar!
Tək Səndə azadlığı tapıbdır insan.

3. Allah! Sən müqəddəs Ruhda şöhrətlən;
Müdrik yolla əbədiliyə apar.

## 132

*Dm* *(П.В-784)*

1. Bu gündən məni, ya Rəbb, Özün apar
Və həyat yolunu, Rəbb, Özün göstər!
Gedə bilməzdim heç vaxt bu yolla mən,
Mənimlə əgər olsan, mən möhkəməm.

2. Qəmdə, kədərdə sevinci ver Özün:
Müqəddəs sözlərinlə mən ruhlanım;
Möhkəmləndir, Rəbbim, imanımı,
Rədd eylə məndən pis lovğalığı.

3. Nə vaxt ki, cismimdə ümid sönər,
Pis yoldan yaxşıya məni yönəlt,
Apar məni yolunla, Rəbb Məsihim
Əbədi Diyarına çata bilim!

## 133

*D* *(П.В-792)*

1. Gümrah həyat yolu ilə gedərik biz,
Etibar etsək əgər İsaya.
İşimizdə Rəbbin gücün taparıq,
Etibar etsək əgər İsaya.

*Nəqarət:* Yolumuz işıqlanar,
Əbədi sevinc olar,
Düşmən heç vaxt çaşdırmaz,
Etibar etsək əgər İsaya.

2. Allahın vədi bizə aydın olar,
Etibar etsək əgər İsaya.
Ürək Allahın lütfü ilə dolar,
Etibar etsək əgər İsaya.

3. Rəbbin iradəsin icra edərik,
Etibar etsək əgər İsaya,
Həmişə göylərə nəzər salarıq,
Etibar etsək əgər İsaya.

## 134

*Dm* *(П.В-797)*

1. Günahlı, təlaş içində
Rəbbim, mənimlə qal,
• Yalnız Sənlə rahatlanır qəlbim,
• Yalnız Sənsən mənim təsəllim.

2. Saysızdır mənim qüsurlarım,
Canımı onlardan qurtar,
• Qəlbimə məlhəm tapmaq istərdim
• Sənin ayaqların yanında.

3. İstərdim qəlbən, ürəkdən
Sənə məxsus olam, Məsihim;
• Qəlbimdə Sən Özün yaşa,
• Canlı məhəbbət mənbəyi kimi.

4. Zülm və kədər içində

Öz əlində məni saxla.
• Axıracan sadiq qalım ki,
• Atamın Məskənində olum.

## 135

1. Rəbbimiz, Məsihin – İsanın lütfü,
Allahın məhəbbəti və Müqəddəs
Ruhun ünsiyyəti bizimlə olsun, bizimlə olsun,
Bizdə olsun, bizdə olsun. Amin.

# MÜNDƏRİCAT

A

**Nəğmənin nömrəsi**

Allahım, öyrət məni ........................................ 21
Allahım, sirlərim Səndən hec qizli deyil ........................................ 13
Allah sovqatlarını ........................................ 95
Allah yaradıb göyləri ........................................ 91
Azad etdin bu gün məni ........................................ 125

B

Bağlı qapıya gecəyarı ........................................ 61
Balaca uşağıq ........................................ 98
Balaca çiçək ........................................ 101
Başqa təsəlli yoxdur ........................................ 25
Biçin vaxtı çatdı ........................................ 128
Bilirəm, Xilaskarım sağdır ........................................ 124
Budur qapı qarşısındasan ........................................ 65
Bütün qəlbimlə mən inanıram ........................................ 83

C

Canım əzablar içində üzülsə ........................................ 81

D

Daha çox Sənə sevgi, Sənə İlahim ........................................ 19
Dinləyin sevgi hekayəsini ........................................ 1
Doğma diyar sakinliyinə ........................................ 71
Dostum, dərk etdinmi qanın gücünü ........................................ 59

Dostum, qəlbin sənin yorulanda ........................................ 80
Dirilmə qünü ........................................ 120

E

Ehtiyacım var Sənə, Xilaskar ........................................ 33

Ə

Əbədi bizə yol açdı ........................................ 47
Əllər Rəbb üçün işləyər ........................................ 109
Əziz İsam mənim ........................................ 51
Əziz İsa Xilaskar ........................................ 40

G

Gəlin sevinək, qardaşlar ........................................ 24
Gəl qəmlənmə, qəlbim mənim ........................................ 76
Göylərdədir evim və doğma vətənim ........................................ 70
Göylərdə olan Atamız ........................................ 6
Göylərə gedirik tikanlı yolla ........................................ 38
Göy yüksəkliyində ... ........................................ 114
Gümrah həyat yolu ilə ........................................ 133
Günahdan xilas oldum ........................................ 32
Günahlı gəzirdim mən ........................................ 27
Günahlı, təlaş içində ........................................ 134
Günəş tək parlaqdır ........................................ 121

H

Hədsiz böyükdür Məsih sevgisi ........................................ 28
Həmd olsun böyük, lütfkar Allaha ........................................ 131
Hər bir gün, hər bir ana görə ........................................ 23
Həyəcan, qəm və şübhə zamanları ........................................ 77
Həyatımın Rəbbi olub ........................................ 46
Həyat nə gözəldir ........................................ 30

X

Xeyir-dua axınını ........................................ 3
Xilaskarım, hara aparsan ........................................ 39
Xilaskarım, Sənə yalvarıram ........................................ 17
Xilaskarım, söylə Sən ........................................ 5

Xilas olmuş ailəmə ....................................................................................106

İ

İbadətim, ibadətim ......................................................................................14
İbadət vaxtı çatdı............................................................................................2
İç əzabkeş qəm kasanı ..................................................................................78
İlahi, qarşında ibadət ilə mən ......................................................................15
İlahi, Sən bilirsən mənim arzumu................................................................12
İndi kiçik uşaqlar oxuyur İsa haqda ..........................................................117
İntizar hissi ilə ürəyim dolanda ...................................................................50
İsa, kim Səni tanıyar burada ........................................................................85
İsanın gəlişini biz gözləyirik........................................................................129
İsanın gözəlliyi, məndə parla......................................................................126
İsaya həmd edək .........................................................................................100
İsaya mən həsr edirəm ................................................................................110
İsaya yer qalıbmı ..........................................................................................67
İstəməzdim, Rəbbim mənim.......................................................................130
İstərdim mən və ailəm..................................................................................90
İstərdim Sənin bağında mən ......................................................................104
İstəyir Allah xeyir-dua versin .......................................................................56

K

Kimin qəlbində Rəbb sevgisi var..................................................................79

Q

Qardaş, xatırlat mənə .....................................................................................4
Qəlbin Xilaskarıdır İsa ....................................................................................9
Qapını Məsih döyür ......................................................................................58
Qarşında mən diz çökərək ...........................................................................37
Qorxumu ürəyi sıxır .....................................................................................43
Qolqota, Qolqota, Qolqota ...........................................................................86
Qoyub Sən qöyləri, bu dünyaya qəldin .......................................................84
Quru səhrada tikilib bir quyu ......................................................................60
Quzusuyam Məsihin ...................................................................................103

L

Lap hündür dağlarla ...................................................................................107

**M**

Məhəbbət, səadət, xilasa görə ........................................22
Məhəbbət ürəkdə heç zaman sönməz ..............................35
Mən səni sevirəm, mənim Məsihim ..................................45
Mərhəmətli qarışqa .......................................................113
Məsihi çağır, günahlı .....................................................54
Məsihim – müqəddəs xəzinəmdir ....................................29
Minnətdarıq, Rəbbim .....................................................99
Möcüzədir bu! ..............................................................118
Müqəddəs Rəbbim, yanına gəlirəm ..................................74

**N**

Necə istərdim uçum göylərə...............................................73
Neçə səfər, nə qədər yol ..................................................64
Nə üçün məni yaratmısan .................................................48
Nə əkmisən, dostum, yazda sən.........................................127
Nikah yadigar və əziz olur ................................................87
Niyə ləngiyirsən bu yolda .................................................55

**O**

Oğlum, qəlbini Mənə ver ..................................................66
O mavi göylər (1 variant) ..................................................68
//__________// (2 variant) ...................................................69

**Ö**

Ömrümüz qısadır...........................................................123
Öz balanı Sən apar .........................................................42

**P**

Pis əməllər etmə ............................................................105

**R**

Rəbbə yaxın olum ...............................................................7
Rəbb-Çoban axtarır Öz quzusunu ......................................57
Rəbbim, bilirsən arzularımı ...............................................11
Rəbbim İsa, mənim yanıma gəl ..........................................18
Rəbb xeyr-dua verərək .....................................................89
Rəbb körpə sərçəni sevir .................................................102
Rəbbim, qoru məni ............................................................8
Rəbbim, yalvarıram Sənə ..................................................10

Rəbbimiz Məsihin – İsanın Lütfü ....................................................135
Rəbb İsa Məsihi izzətləndirim ..........................................................92
Rəbb, yalvarıram Sənə ....................................................................112

**S**

Sakit bayram vaxtı ..........................................................................122
Sakit səhər şəfəqiylə ..........................................................................96
Sevginin ağır itkisi zamanı ..................................................................82
Sevinc göylərdə, sülh var gəlblərdə ....................................................115
Səhər çağı tezdən göy açılan zaman .....................................................93
Sən gəldin dünyaya ............................................................................63
Səninlə olmaq istəyirəm.......................................................................41
Sənin Oğlunun dualarına görə ..............................................................16
Səmanın yüksəkliyinə baxıram ...........................................................116
Söhbət etmək istəyirəm Səninlə ...........................................................44
Sönürmü alov sınaq zamanında ............................................................75
Sübh çağı.........................................................................................119

**T**

Tanrı Özü izin verib ...........................................................................88
Tam inanıram, İsam mənim ..................................................................31
Tənha qalanda dünyada .......................................................................36

**U**

Uca göylər diyarında ..........................................................................*72*
Ucalarda olan Rəbbim .........................................................................26
Uca mavi göylərə ...............................................................................52
Uca Rəbbin yolunda ...........................................................................49
Uşaq qəlbimizlə..................................................................................97

**V**

Varlığımla Sənə bağlıyam, İlahi ...........................................................34

**Y**

Yalnız Allahda ruhun tapar .................................................................62
Yalnız Sən, ya Rəbb ...........................................................................20
Yaşamaq asandır ...............................................................................53
Yerusəlim dağında..............................................................................94